26 avqust 2022 №62 (1935) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan muğamının bayramı

### Sədası artıq azad Qarabağdan, Şuşadan dünyaya yayılır...



26 avqust "Azərbaycan muğamı və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü"dür. Bu günlə bağlı qərar 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və bu şəhərdə keçirilən beynəlxalq musiqi festivalının rəhbərliyi tərəfindən qəbul olunub.

Bu tarix bütün muğamsevərlərin, bu sənəti yaşadan, ona yaradıcılıq və həyat yolunu həsr edən hər kəsin bayramıdır.

...Biz azərbaycanlılar haqlı olaraq muğamlarımızla fəxr edirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlər boyu öz mədəniyyətini formalaşdırıb. Azərbaycanın zəngin mədəniyyətinin ən gözəl incilərindən biri olan muğam bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik – bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Muğam gözəlliyin və məhəbbətin rəmzidir...

Azərbaycan mədəniyyətinin hamisi, milli incəsənətimizin, musiqimizin və onun ən zəngin qaynağı sayılan muğamın yaşadılması və dünyada tanıdılmasında müstəsna xidmətləri olan Mehriban xanım Əliyevanın bu sözləri bu bənzərsiz sənət irsinin xalqımızın milli-mənəvi kimliyi üçün dəyər və önəmini ifadə edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihə və tədbirlər Azərbaycan muğam sənətinin tarixində intibah yaradıb. Bu fəaliyyətin nəticəsidir ki, UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına salınan Azərbaycan muğamı dünyanın mötəbər musiqi salonlarında səslənir, alqışlanır, rəğbət görür.

Bu gün bizim üçün ən önəmlisi odur ki, Azərbaycan muğamının sədası artıq azad Qarabağdan, Şuşadan, Cıdır düzündən dünyaya yayılır. İki il öncə Vətən müharibəsində qazandığımız tarixi Zəfərlə, yurd yerlərimizdə ucalan bayrağımızla milli ruhumuz da təzələnib, nisgildən arınıb, zirvəyə ucalıb. Bu ruh ucalığının bir nümunəsi də Cıdır düzündə oxunan muğamımız, artıq əzəli məkanında səslənən "Qarabağ şikəstəsi"dir. Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə Muğam Televiziya Müsabiqəsinin qala-konsertinin ilk dəfə qala şəhərimizdə, mədəniyyət paytaxtımız Şuşada keçirilməsi də bunun möhtəşəm ifadəsi oldu.

Bu gün – 26 avqust Azərbaycan muğamının bayramıdır. 26 avqust həmçinin muğam sənətimizə yeni həyat və üfüqlər bəxş edən təşəbbüs və layihələrin müəllifi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın doğum günüdür. Bu əlamətdar gün münasibətilə Mehriban xanıma ən xoş arzularımızı çatdırır, mədəniyyətimizin hamisi kimi indiyədək gördüyü bütün işlərə görə dərin minnətdarlığımızı ifadə edir və bu nəcib fəaliyyətində yeni uğurlar diləyirik.

# Xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır

### Kasım-Jomart Tokayev: "Qazaxıstan və Azərbaycan strateji tərəfdaşlar, müttəfiqlərdir..."



Biz ikitərəfli münasibətlərimizin geniş gündəliyinə, beynəlxalq problemlərə dair çox ətraflı söhbət etdik və bütün məsələlər barədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyünü gördük. Əminəm ki, bu səfər münasibətlərimizin gələcək inkişafı üçün çox böyük əhəmiyyət kəsb edəcək.

Prezident İlham Əliyev bu sözləri avqustun 24-də Azərbaycana rəsmi səfərə gələn Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə geniş tərkibdə keçirilən görüşdə söyləyib.

Qeyd edək ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimindən sonra dövlət başçılarının təkbətək görüşü olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" – "Qızıl qartal" ali ordeni təqdim olunub.

Qazaxıstan Prezidentinin müvafiq fərmanına əsasən, İlham Əliyev iki ölkənin ikitərəfli siyasi, iqtisadi və mədəni münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi töhfəsinə görə bu ordenə layiq görülüb.

Kasım-Jomart Tokayev çıxış edərək bildirib ki, Qazaxıstanda Azərbaycan Prezidentini görkəmli dövlət xadimi, Azərbaycanı tarixi Zəfərə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tam müvafiq olaraq ərazi bütövlüyünün bərpa edilməsinə gətirib çıxarmış şəxsiyyət kimi tanıyır, ehtiram bəsləyirlər: "Siz dövlətlərimiz arasında çoxtərəfli, çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə verirsiniz. Bütün qazax xalqı adından ehtiram əlaməti olaraq bu gün Sizə "Altın kıran" ordenini təqdim etmək istərdim".

Prezident İlham Əliyev Qazaxıstanın ali ordeni ilə təltif edilməsinə görə təşəkkürünü bildirərək deyib: "Bizim xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır. Bu gün Qazaxıstan və Azərbaycan müstəqillik yolunda inamla irəliləyən iki müstəqil dövlət kimi iqtisadiyyatın inkişafında, sosial məsələlərin həllində yüksək sürət nümayiş etdirir, dünya arenasında ölkələrimizin nüfuzu artır. Mən bu mükafatı bütün Azərbaycan xalqına hörmət əlaməti hesab edirəm... Bu yüksək mükafat mənim, əlbəttə ki, münasibətlərimizin möhkəmləndirilməsi yolunda bundan sonrakı fəaliyyətimdə üzərimə vəzifələr qoyur. Əmin ola bilərsiniz ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq".

Dövlət başçılarının geniş tərkibdə görüşündən öncə Azərbaycan tərəfin Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpasına ilk töhfəsi – Füzuli şəhərində tikiləcək Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin təqdimatı da keçirilib.

Azərbaycan Prezidenti nümayəndə heyətlərinin iştirakı ilə görüşdə bu təşəbbüsə görə də Qazaxıstan rəhbərinə minnətdarlığını bildirib: "Bu, bizim xalqımıza qardaşcasına münasibətin daha bir təzahürü, hazırda bizim hamımızın məşğul olduğumuz Qarabağın bərpası işinə töhfədir".

Prezident İlham Əliyev vurğulayıb ki, iki ölkə arasında münasibətlərin gündəliyi kifayət qədər genişdir və səfər proqramına 20-dən artıq sənədin imzalanmasının daxil edilməsi də bunu göstərir.

"Xarici siyasətin gündəliyinə gəldikdə isə biz, iştirak etdiyimiz aparıcı beynəlxalq təşkilatlarda geniş əhatəli məsələlər üzrə fəal əməkdaşlıq edirik, daim bir-birimizi dəstəkləyirik və əminəm ki, bu, gələcəkdə də davam edəcək. Çünki bizim əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatların sayı kifayət qədər çoxdur və hər yerdə Qazaxıstan və Azərbaycan nümayəndələri sıx qarşılıqlı fəaliyyətdədirlər", – deyə İlham Əliyev əlavə edib.

Azərbaycanla Qazaxıstan arasında nəqliyyat-logistika infrastrukturunun inkişafı, hər iki ölkənin tranzit potensialının yüksəldilməsi ilə bağlı böyük planların olduğunu deyən dövlət başçısı bunun iqtisadi-ticari münasibətlərin inkişafına da təkan verəcəyini vurğulayıb.

Ölkələrimizin humanitar sahədə əməkdaşlığının əhəmiyyətinə də toxunan İlham Əliyev bildirib ki, Qazaxıstanın hədiyyəsi – Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi ölkələrimiz arasında humanitar əməkdaşlığın daha bir elementidir.

davamı səh. 2-də

## Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması

### Qobustan qoruğunda reallaşan beynəlxalq layihəyə yekun vurulub

Avqustun 24-də Qobustan Milli Tarix-Bədii Qoruğunda "Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması: Qobustan" layihəsinin yekununa dair mətbuat konfransı keçirilib.

Qoruğun direktoru Vüqar İsayev bildirdi ki, xarici tərəfdaşlarla müştərək elmi tədqiqat layihələri çərçivəsində 2019-cu ildən icrasına başlanılan "Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması: Qobustan" layihəsinin son mərhələsi başa çatır. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Qobustan Milli Tarix-Bədii Qoruğu, Madrid Komplutense Universiteti (İspaniya) və Ferrara Universitetinin (İtaliya) dəstəyi ilə həyata keçirilən layihənin əsas məqsədi Qobustan-



da ilkin məskunlaşma prosesinin tədqiqi, xronometrik üsulla qayaüstü təsvirlərin xronoloji çərçivəsinin müəyyən edilməsi və üzəri təsvirli qayalarla insan məskənləri arasındakı əlaqəni müəyyən etməkdir. Layihədə Qobustan qoruğu, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, İspaniyanın Madrid Komplutense, Rovira və Virgili, Barselona universitetləri, Kataloniya İnsan Paleoekologiyası və Sosial Təkamül İnstitutu (IPHES), İtaliyanın Ferrara, Milan və Neapol l'Orientale universitetləri, bu ölkənin Milli Araşdırma Şurası, həmçinin Fransanın Milli Elmi Tədqiqatlar Mərkəzi iştirak edib.

davamı səh. 3-də

## Malazgirt Zəfərinin 951-ci ildönümü ilə bağlı tədbirlərdə ölkəmiz də təmsil olunur



Türkiyədə Malazgirt Zəfərinin 951-ci ildönümü təntənəli şəkildə qeyd edilir. Bununla bağlı Muş vilayətinin Malazgirt və Bitlis vilayətinin Ahlat rayonlarında tədbirlər təşkil olunub.

Ahlatın Çarho bölgəsindəki milli parkda "1071 Sultan Alp Arslan otağı" və müxtəlif ölkələrin də təmsil olunduğu 51 çadır qurulub. Azərbaycan üçün çadır milli parkın ən cəlbedici məkanında ayrılıb.

səh. 3

## Göytürk dövrünün ən qədim yazılı abidəsi

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Akademiyasının (BTA) Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutu ilə birgə apardığı arxeoloji tədqiqatlar nəticəsində bu ölkənin Arxanqay bölgəsinin Nomqon düzündə İltəriş Xaqana məxsus külliyə (abidə kompleksi) aşkar edilib.

Kompleksin ümumi sahəsi 49x41,5 metrdir. Qərbdən şərqə doğru oval formada yerləşən külliyə ətrafında xəndək qazılıb, torpaq qalaqlanaraq qala inşa edilib.

Kompleksin qərb tərəfində, ərazinin ortasında dəlikli daş küp (mehrab), daş insan fiqurları, iki balası olan şir heykəli, iki qoyun heykəli var. Kompleksin girişindən şərqə doğru 51 balbal daş yan-yana düzülüb. Onların arasında beş balbal daşında Göytürklərin Aşina sülaləsinə aid "dağkeçisi" rəmzi müəyyən edilib. Bundan əlavə, kompleksdə



ibadət yerinin olduğunu sübut edən kərpic qalıqları və yola səriləri gil örtük mövcuddur.

Aşkarlanan daş kitabənin yuxarı hissəsi və onun tısbağaşəkilli bünövrəsi ibadət yerinin qarşısında aşkar edilib. Tapılan abidənin iki tərəfində 12 sətir qədim türk yazısı, üçüncü tərəfində isə əski soqd qrafikası həkk olunub.

davamı səh. 6-da

## Tarix və ənənənin rəngləri

XX əsrin əvvəllərindən etibarən Bakının mədəni mühiti təsviri sənətimizə bir çox istedadlı rəssam, heykəltəraş, dekorativ-tətbiqi sənət ustaları bəxş edib. Bu istedadları coşqun yaradıcılıq ruhu ilə sənətə sövq edən Azərbaycan paytaxtının qədim tarixi, mədəni irsi, bütün fəsillərdə özünəməxsus təbiəti, sahilində yerləşdiyi Xəzər, Abşeron bağları, İçərişəhər, onun məxsusi aurası və s. olub. Bu sənət ənənəsinə sadiq qalan rəssamlardan biri də Fuad Manafovdur.

Adət-ənənələrə bağlılıq, unudulmaqda olan bədii dəyərləri yaşatmaq istəyi rəssamı bu mövzuda silsilə əsərlər yaratmağa sövq edir. Bu qəbildən olan əsərlərin mövzusu xalqın şifahi poetik yaradıcılığını özündə birləşdirir.

səh. 7

Sankt-Peterburqda kinostudiya rəhbərlərinin görüşü



səh. 3

Musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsahibə keçiriləcək

səh. 3



Polşa orkestri azərbaycanlı dirijorun rəhbərliyi ilə çıxış edib

səh. 8

# Xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır



## Kasım-Jomart Tokayev: "Qazaxıstan və Azərbaycan strateji tərəfdaşlar, müttəfiqlərdir..."

*əvvəli səh. 1-də*

Dövlət başçısı onu da diqqətə çatdırıb ki, iki gün bundan əvvəl Sumqayıt şəhərinin mərkəzi küçələrinin birinə qazax xalqının görkəmli oğlu, maarifçi, türkoloq Əhməd Baytursınovun adı verilib: "Bu da bizim əcdadlarımıza hörmətin əlamətlərindən biridir".

Prezident Kasım-Jomart Tokayev çıxışında Qazaxıstan və Azərbaycanın strateji tərəfdaşlar, müttəfiqlər olduğunu vurğulayıb. "Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik qarşılıqlı münasibətlərinin dərinləşməsi haqqında Bəyannamə imzalanacaq. Mən Bakıya xüsusi missiya ilə gəlmişəm – əməkdaşlığımızı yeni səviyyəyə çatdırmaq missiyası", – deyə o əlavə edib. Son illərdə qarşılıqlı ticarətin həcminin 3 dəfə artdığını deyən Qazaxıstan rəhbəri bildirib ki, bu, arxayınlaşmağa əsas vermir, çünki ticarəti artırmaq üçün imkanlar var.

Qazaxıstan Prezidenti də iki ölkə arasında humanitar əməkdaşlığın vacibliyini xüsusi vurğulayıb: "Burada çox böyük imkanlar var. Fikrimcə, gələn il ölkələrimizin hökumətləri arasında razılaşma əsasında Qazaxıstanda Azərbaycan mədəniyyəti ongünlüyü keçirə bilərik. Sizin mədəniyyətə böyük maraq qalmaqdadır. Güman edirəm ki, bizim insanlar Azərbaycan mədəniyyəti üçün darıxıblar və biz Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrini öz ölkəmizdə böyük məmnuniyyətlə qəbul edə bilərik".

### Şuşa və Türküstan qardaşlaşır: Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb

Avqustun 24-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb.

Prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqram"ı və "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"ni imzalayıblar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında 2022-2025-ci illər üçün mədəniyyət sahəsində əməkdaşlığa dair Proqram"ı Azərbaycanın mədəniyyət naziri Anar Kərimov və Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi imzalayıblar.

Həmçinin "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2023-2024-cü illər üzrə Əməkdaşlıq Planı" (Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi tərəfindən) və "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş" (Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın Baş nazirinin müavini vəzifəsini icra edən, ticarət və inteqrasiya naziri Serik Jumanqarin) imzalanıb.



Bundan əlavə, səfər çərçivəsində Azərbaycan və Qazaxıstanın müvafiq strukturları arasında əməkdaşlıq sənədləri – Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Qazaxıstan İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında memorandum, ADA Universiteti ilə Qazaxıstan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında memorandum, aidiyyəti nazirliklər arasında nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları sahəsində memorandum, özəl sektorun işbirliyinə dair sazişlər imzalanıb.

İmzalanan sənədlər arasında Azərbaycanın Şuşa şəhəri və Qazaxıstanın Türküstan şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında protokol, Mingəçevir və Uralsk şəhərləri arasında əməkdaşlıq memorandumu da var. Onu da qeyd edək ki, Türküstan şəhəri 2017-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olub, 2023-cü ildə bu missiyanı Şuşa şəhəri daşıyacaq.

***

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Qazaxıstanın dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti imzalanan 20-dən çox sənədin ikitərəfli münasibətlərin daha geniş hüquqi bazasını təmin edəcəyini vurğulayıb: "Əlbəttə, həmin sənədlər içərisində Qazaxıstan ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəmlənməsi və müttəfiqlik qarşılıqlı əlaqələrinin dərinləşməsi haqqında indicə imzalanmış Bəyannaməni xüsusi qeyd etmək istərdim. Bu Bəyannamənin adı sənədin əhəmiyyətinə dəlalət edir. Biz təkcə strateji tərəfdaşlar deyil, həm də müttəfiqlərik. Əlbəttə, bu, bizim üzərimizə xüsusi məsuliyyət qoyur və biz bu məsuliyyətə hazırıq. Bəyannamə bizim əməkdaşlığımızın çox istiqamətlərini ehtiva edir və əlbəttə ki, gələcək fəaliyyətimiz üçün çox ciddi baza kimi xidmət edəcək".

Bəyannamədə Azərbaycanın Mərkəzi Asiyanın beş ölkəsi ilə çoxtərəfli əməkdaşlığının gələcəkdə mümkün inkişafının da əksini tapdığını diqqətə çatdıran İlham Əliyev deyib: "Fikrimcə, bu da təbiidir, çünki xalqlarımızın tarixi də, ənənələri də, mədəniyyəti də bütün sahələrdə daha sıx qarşılıqlı fəaliyyət göstərilməsini tələb edir".

### Füzulidə Kurmanqazının adını daşıyacaq mərkəz dostluğumuzun simvolu olacaq

Azərbaycan Prezidenti işğaldan azad edilmiş ərazilərdə görülən işlər barədə də həmkarına məlumat verdiyini deyib: "Ölkələrimizi birləşdirən Orta Dəhlizin çox böyük perspektivləri var. Artıq həm Qazaxıstanda, həm də Azərbaycanda böyük həcmli yükləri nəql etməyə imkan verən müasir infrastruktur yaradılıb. Lakin biz əməkdaşlığın gələcək istiqamətlərini müəyyən etmişik ki, Orta Dəhlizin buraxıcılıq qabiliyyətini daha da artıraq. Birgə Bəyannamədə Azərbaycanın Şərqi Zəngəzur rayonunun Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsinin vacibliyi də qeyd edilib. Bu da Orta Dəhlizin tərkib hissəsi olacaq".

Prezident İlham Əliyev Füzuli şəhərində Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin yaradılması təşəbbüsünə görə Qazaxıstanın dövlət başçısına bir daha təşəkkürünü bildirib: "Biz Qazaxıstanda keçmiş məcburi köçkünlərin qayıtması probleminə nə dərəcədə səmimi münasibət bəsləndiyini, bu problemin Qazaxıstan üçün də nə dərəcədə aktual olduğunu bir daha gördük. Bu təşəbbüsə görə çox təşəkkür edirik. Bu, dostluğun, qardaşlığın, həmrəyliyin təzahürüdür. Əminəm ki, qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyacaq Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi həm də Qazaxıstan-Azərbaycan dostluğu mərkəzi olacaq".

Qazaxıstan Prezidenti qeyd edib ki, ərazi bütövlüyünü Zəfərlə bərpa edən Azərbaycan öz inkişafının yeni dövrünə qədəm qoyub: "Biz, həmçinin Qarabağın və Şərqi Zəngəzurun necə dinamik dirçəldildiyini görürük. Sizin şəxsi səyləriniz sayəsində yaxın gələcəkdə bu region çiçəklənən diyara çevriləcək, buna heç bir şübhə yoxdur. Qazaxıstan öz tərəfindən bu nəcib işə əlindən gələn töhfəni verməyə hazırdır. Bu gün bizim hədiyyəmizin təqdimatı keçirildi, qazax xalqı adından burada, – Füzuli şəhərini nəzərdə tuturam, – gələn ilin sonunadək Kurmanqazı adına incəsənət məktəbi tikiləcək. Bu obyektin inşası Qazaxıstanın aparıcı "Bİ" tikinti şirkətinə həvalə edilib...".

Kasım-Jomart Tokayev Azərbaycana rəsmi səfərinin əlamətdar yubiley tarixinə – ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsinə təsadüf etdiyini də vurğulayıb. "Biz kifayət qədər böyük yol keçmişik və bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik barədə tam əsasla danışırıq. Bu əməkdaşlığın genişləndirilməsi, şaxələndirilməsi barədə Bəyannamə imzalanıb. Bu, irəliyə doğru real addımdır. Bizim aramızda etimada əsaslanan siyasi dialoq qurulub, dövlətlərimiz beynəlxalq məkanlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, Türk Dövlətləri Təşkilatında əməkdaşlıq edirlər...".

### "Mədəni-humanitar məsələlər birgə səylərlə zənginləşir"

Qazaxıstan Prezidenti mətbuat üçün bəyanatında da ölkələrimiz arasında mədəni-humanitar əməkdaşlığın önəmini diqqətə çatdırıb: "Sevindirici haldır ki, gündəlikdə duran mədəni-humanitar məsələlər birgə səylərlə zənginləşir, bu da, əlbəttə, xalqlarımızın daha da yaxınlaşmasına kömək edir. Bu gün mən ölkəmizdə Azərbaycan mədəniyyəti ongünlüyünün keçirilməsi barədə təşəbbüs irəli sürdüm. Bu tədbirin populyarlığına heç bir şübhəm yoxdur, çünki xalqımız Azərbaycan mədəniyyəti üçün, sizin görkəmli incəsənət xadimləri üçün darıxıb. Mən ümidvaram ki, bu tədbir baş tutacaq və uğur qazanacaq. Bundan başqa, biz ölkələrimiz arasında mədəniyyət xadimlərindən ibarət nümayəndə heyətlərinin mübadiləsini həyata keçirmək barədə razılığa gəldik".

Kasım-Jomart Tokayev Sumqayıt şəhərində küçələrdən birinə qazax xalqının görkəmli nümayəndəsi, türkoloq Əhməd Baytursınovun adının verilməsinin əhəmiyyətini vurğulayıb: "Əlamətdar haldır ki, Əhməd Baytursınov 1926-cı ildə məhz burada, Bakı şəhərində keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayının nümayəndəsi olub. Mənim fikrimcə, bu fakt bir daha göstərir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələr həmişə çox sıx olub".

Bir neçə il öncə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərinin küçələrindən birinə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin adının verildiyini xatırladan Kasım-Jomart Tokayev bildirib ki, ötən müddətdə şəhər inkişaf edərək böyüyüb, daha böyük küçə və prospektlər salınıb: "Buna görə mən qərara aldım və paytaxtın akiminə müvafiq tapşırıq verdim ki, o, bizim paytaxtın böyük küçələrindən və ya prospektlərindən birinə Heydər Əliyevin – bizim çox böyük hörmət bəslədiyimiz, ölkəmizdə səmimi ehtiram bəslənilən insanın adının verilməsini təklif etsin".

## "Qazax yurtası"nda dost süfrəsi



Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olublar.

Prezidentlərə yurta barədə məlumat verilib.

Bildirilib ki, avqustun 1-də açılan "Qazax yurtası"nda dost və qardaş ölkənin turizm potensialı təqdim edilir. Avqustun 31-dək davam edəcək bu aksiyada "Welcome to KZ" informasiya-turizm mərkəzi tərəfindən ziyarətçilərə Qazaxıstanın müasir istirahət mərkəzləri, tarixi və adət-ənənələri, "Qazaxıstan" mehmanxanası, "Şımbulak" dağ-xizək kurortu, "Air Astana" aviaşirkəti, "Baykonur" kosmodromu, "Kıran" milli şahin ovu mərkəzi və digər turizm məkanları ilə bağlı ətraflı məlumat verilir, təqdimatlar nümayiş olunur, konsert və əyləncə proqramları keçirilir. Yurta ziyarətçilərin Qazaxıstanın müasir inkişafı, mədəni və gəzməli-görməli yerləri, ölkənin tarixi və ənənələri ilə tanış olmaq, qədim köçərilərin dünyasına daxil olmaq, Böyük Çöl ölkəsinin melodiyalarını dinləmək, milli təamlarının dadına baxmaq imkanı yaradır.

Tanışlıq zamanı bildirilib ki, ənənəyə görə, qazax milli süfrəsi ən hörmətli qonaqlar üçün açılır.

Qeyd edək ki, Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə tədbirlər Qazaxıstan səfirliyinin, "Discover Almaty" turizm şirkətinin, "Air Astana" aviaşirkətinin və Qazaxıstanın Azərbaycandakı Ticarət Evinin dəstəyi ilə təşkil olunub.

Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev qazax musiqi qrupunun ifasını dinləyiblər.

Sonra dövlət başçıları çay süfrəsi arxasında söhbət ediblər.

## Füzulidə uşaqlar üçün inşa ediləcək mərkəzin layihəsi ilə tanışlıq

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına (XIX əsrdə yaşamış qazax xalq musiqiçisi, məşhur dombra ifaçısı, bəstəkar Kurmanqazı Sağırbayulı – red.) Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olublar.



"Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev dövlət başçılarına layihə barədə məlumat verib. Bildirib ki, layihə Qazaxıstan Prezidentinin şəxsi tapşırığı əsasında qısa müddət ərzində hazırlanıb. Mərkəz dörd istiqaməti əhatə edəcək: musiqi – vokal və xor oxuma; müasir texnologiyalar, yaradıcılıq – dulusçuluq sənəti, heykəltəraşlıq; idman – oyun zalları, xoreoqrafiya.

Məlumat verilib ki, 2 hektar ərazidə müasir memarlığa uyğun binalar, amfiteatr inşa ediləcək. Burada uşaqların yaradıcılığını üzə çıxarmaq və inkişaf etdirmək üçün hər cür şərait olacaq. Sonra layihə barədə videoçarx nümayiş etdirilib.

Prezident İlham Əliyev Qazaxıstan tərəfindən iki ay əvvəl irəli sürülən təşəbbüslə bağlı layihənin belə operativ şəkildə hazırlanmasına görə təşəkkürünü bildirib.

Qeyd edib ki, Füzuli şəhərinin Baş planı da təsdiqlənib, artıq yaşayış fondunun ilk tikililəri başlayır. Mərkəzin ətrafındakı infrastrukturla bağlı bütün məsələləri də biz paralel həll edəcəyik.

## Ağalı kəndində ilk konfrans

### Böyük Qayıdış: pozulmuş hüquqlar və onların bərpası

Avqustun 24-də Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Zəngilan rayonunun Ağalı kəndində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış: pozulmuş hüquqlar və onların bərpası" mövzusunda yüksək səviyyəli konfrans keçirilib. Tədbirdə dövlət qurumları, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəlikləri və qeyri-hökumət təşkilatları təmsil olunub.



Baş prokuror Kamran Əliyev konfransı açaraq qeyd edib ki, tariximizə qızıl hərflərlə yazılan şanlı Zəfər regionumuzda yeni geosiyasi reallıqlar yaradıb, dövlət başçısı İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən misli görünməmiş sürətli bərpa-quruculuq işləri Qarabağ və Şərqi Zəngəzura əzəli-əbədi sakinlərinin qayıdışının təməlini qoyub. Vətən müharibəsinin Qələbə ilə başa çatmasından 1 il 8 ay sonra "Ağıllı kənd" layihəsinin ilk nümunəsi olaraq Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verildiyi xüsusi vurğulanıb.

Ermənistanın hərbi təcavüzü nəticəsində məcburi köçkün düşmüş Azərbaycan vətəndaşlarının, demək olar ki, bütün fundamental insan hüquq və azadlıqlarının pozulduğu qeyd edilib, dövlət başçısının tapşırığına uyğun olaraq, prokurorluq orqanları tərəfindən aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə erməni təcavüzü nəticəsində vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpası, ölkəmizə dəymiş maddi-mənəvi zərərə görə bütün təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlərin görüldüyü diqqətə çatdırılıb.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı nümayəndəsi Guido Ambroso qaçqın və məcburi köçkün məsələsinin müasir dünyanın ən ağrılı problemlərindən biri olduğunu, ölkəmizin bu sahədə ağır sınaqlardan keçdiyini bildirib, təmsil etdiyi qurum tərəfindən məcburi köçkünlərin qayıdışı üçün zəruri dəstəyin göstəriləcəyini qeyd edib.

Konfransda daha sonra Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov, Vəkillər Kollegiyasının sədri Anar Bağırov və başqaları çıxış ediblər. Qeyri-hökumət təşkilatlarının nümayəndələri mövzu ilə bağlı fikirlərini bildiriblər.

Konfrans iştirakçıları Ağalı kəndi ilə tanış olublar.

əvvəli səh. 1-də

# Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması

## Qobustan qoruğunda reallaşan beynəlxalq layihəyə yekun vurulub

Vüqar İsayev diqqətə çatdırdı ki, 2019-cu ildən icrasına başlanılan müştərək tədqiqat işləri pandemiya ilə əlaqədar müəyyən fasilələrlə davam edib. Layihə çərçivəsində qoruq ərazisindəki Böyükdaş dağının yuxarı səki sahəsində yerləşən Ana zağa sığınacağının qayaüstü təsvirlərinin qeydiyyatı aparılıb, 1960, 1970 və 1980-ci illərdə arxeoloqlar İ.Cəfərzadə, C.Rüstəmov və F.Muradova tərəfindən həyata keçirilmiş arxeoloji qazıntılar zamanı qeydə alınmış mədəni təbəqə və qoruğun fondunda saxlanılan üzəri təsvirli daşlar müasir elmi metodlarla öyrənilib. Təsvirlərin minimum yaşının müəyyənləşdirilməsi üçün təsvirli qayalarla birbaşa əlaqədə olan 1977-ci ildə C.Rüstəmov tərəfindən arxeoloji qazıntı işləri aparılmış kiçik sahədə qeydə alınmış mədəni təbəqəyə baxış keçirilib. Ərazidə ilkin mərhələdə aparılan tədqiqatlar zamanı insan fəaliyyəti ilə bağlı olan Mezolit dövründən (təxminən 10 000 il əvvəl) Orta əsrlərə (XV əsr) qədərki dövrü əhatə edən 5 arxeoloji təbəqə qeydə alınıb.

Son zamanlar əcnəbi mütəxəssislər tərəfindən qoruğa elmi tədqiqat məqsədilə çoxsaylı müraciətlər edildiyini deyən direktor Qobustan abidələrinin artıq dünya mütəxəssislərinin diqqət mərkəzində olduğunu bildirdi. O, eyni zamanda xarici ölkələrdə aparılacaq elmi tədqiqat layihələrində qoruq əməkdaşlarının iştirak etməsi barədə də ilkin razılığa gəlindiyini diqqətə çatdırdı.





***

Mətbuat konfransında iştirak edən tədqiqat qrupunun üzvü, İspaniyanın Rovira və Virginiya Universitetinin professoru Manuel Vaquero Rodrigez Qobustanı qayaüstü incəsənətinin əhatə etdiyi tarixi çərçivənin genişliyi, mövzu müxtəlifliyi, ayrı-ayrı dövrlərin həyat səhnələrini əks etdirməsi, təsvirlərinin müxtəlif texniki üsullarla real çəkilməsi cəhətdən tayı-bərabəri olmayan qədim abidələr kompleksi adlandırdı. Mütəxəssis apardıqları tədqiqat işindən danışaraq qeyd etdi ki, son elmi tədqiqatlar nəticəsində ərazidən daş materiallar, insanlar tərəfindən ovlanmış heyvanların (qoyun, keçi, at və iribuynuzlu) sümükləri, bəzək əşyaları, keramika və son 10 000 il ərzində ətraf mühitin necə dəyişdiyini anlamağa imkan verən kömür qalıqları aşkar olunub.

İspaniyalı professor qeydə alınan ən maraqlı tapıntılardan biri – Mezolit dövrünə aid edilən 5-ci təbəqədə aşkar olunan insana məxsus osteoloji (sümük) qalıqlar barədə ətraflı məlumat verdi: "Aşkar olunan qalıqlar 4-8 yaş arası uşağın ayaq sümükləridir. Ərazidə üzə çıxarılan və bu tapıntı haqqında daha çox məlumat əldə etməyə kömək edəcək əlavə təhlil gözləyən artefaktları insan qalıqlarının dəfnə aid olduğunu ehtimal etməyə imkan verir".

Bildirildi ki, bu tapıntılar 70-ci illərdə C.Rüstəmov və F.Muradova tərəfindən aparılan qazıntılar zamanı Ana zağada aşkar olunmuş məlum insan qalıqları ilə üst-üstə düşür. Qobustanın uzun dövrlü qayaüstü təsvirlərinin burada yaşayan insanların mənəvi aləmini, incəsənət duyumunu öyrənmək üçün əvəzsiz xəzinə olduğunu deyən ispan mütəxəssis gələcəkdə aparılacaq tədqiqatların aşkar olunmuş osteoloji qalıqların yaşını daha dəqiq müəyyənləşdirməyə, C.Rüstəmov və F.Muradova tərəfindən aşkar olunan digər skelet qalıqları ilə əlaqəni müəyyən etməyə imkan verəcək. "Ana zağadakı insan qalıqları son ovçu-yığıcı cəmiyyətinin ənənəvi rituallarının və simvolik davranışlarının öyrənilməsində də açar rolunu oynayır. Sonrakı tədqiqatlar qalıqları aşkar olunmuş uşağın DNT-sini və onun daha çox ovçu-yığıcı Avrasiya populyasiyaları ilə əlaqələrini müəyyən etməyə əsas yaradacaq. Eyni zamanda izotopik analiz bu insanların gündəlik qidalanması haqqında məlumat əldə etməyə imkan verəcək", – deyə ispaniyalı mütəxəssis əlavə etdi.

İspaniyada da Qobustana bənzər insanların qədim yaşayış məskənlərinin olduğunu deyən Manuel Vaquero Rodrigez bildirdi ki, onlar bir-birlərindən minlərlə kilometr məsafədə yerləşsələr də, insanların yaşayış tərzində, ov zamanı istifadə etdikləri alətlərdə bir oxşarlıq sezilir: "Azərbaycanda olduğu kimi, İspaniyada da Paleolit, Mezolit dövrünün insanları ovçuluqla məşğul olub. Bununla yanaşı, fərqlərin olduğunu da görürük. Daha sonrakı dövrlərdə formalaşan mədəni qatlarda insanların istifadə etdiyi alətlər, qayaüstü öküz təsvirləri bunu deməyə əsas verir".

Çıxışlardan sonra media nümayəndələrinin sualları cavablandırıldı.

Mətbuat konfransından sonra media nümayəndələri üçün qoruq ərazisində infotur təşkil olundu.

Qeyd edək ki, "Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması: Qobustan" layihəsi üzrə tədqiqatlarda İspaniyadan Markos Qarsiya Diez (Madrid Komplutense Universiteti), Manuel Vaquero Rodriges (Rovira və Virgili Universiteti), Bianka Oçoa Freyl (Basklar Ölkəsi Universiteti), Dario Siqari (İtaliyanın Ferrara Universiteti, Portuqaliyanın Koimbra Universiteti) və Qobustan Milli Tarix-Bədii Qoruğunun əməkdaşı Sevinc Şirinli iştirak ediblər. Qoruq əməkdaşları Günay Verdiyeva, Turan Yunus və Rəfael Bəkirov tədqiqatlara köməkçi qismində cəlb olunublar.

**Lalə Azəri**

# Hərbi münaqişələr dövründə mədəni abidələrin dağıdılması

## Xalça Muzeyinin direktoru beynəlxalq konfransda Qarabağda törədilən talandan danışıb

Çexiyanın paytaxtı Praqada avqustun 20-də başlayan Beynəlxalq Muzeylər Şurasının (ICOM) 26-cı Baş Konfransı davam edir. Tədbirdə ICOM Azərbaycan Milli Komitəsinin nümayəndə heyəti də iştirak edir.

Tədbir çərçivəsində ICOM-un Fəlakət risklərinin idarəolunması üzrə Beynəlxalq Komitəsinin konfransı da keçirilib. ICOM Azərbaycan Milli Komitəsinin sədri, Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova konfransda "Qarabağın timsalında hərbi münaqişələr dövründə mədəni-tarixi abidələrin və muzeylərin dağıdılması" mövzusunda çıxış edib.

Xalça Muzeyindən bildirilib ki, direktor çıxışında dünyadakı hərbi əməliyyatlar zamanı nadir abidələrin, dəyərli maddi mədəniyyət nümunələrinin dağıdıldığını, sənət əsərlərinin oğurlandığını, talan edildiyini vurğulayıb.



Diqqətə çatdırılıb ki, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış Azərbaycan torpaqlarında da mədəni irs, muzeylər eyni aqibəti yaşayıb. Bu müddət ərzində həmin ərazilərdəki mədəni irs qəsdən və ardıcıl şəkildə məhv edilib. Şirin Məlikova mədəni irsin qorunması məsələsində etnik, dini və ya milli ayrı-seçkiliyə yol verilməsinin qəbuledilməz hal olduğunu bildirib, beynəlxalq təşkilatların bütün bəşəriyyətin maddi irsinin qorunmasında eyni həssaslığı göstərməsinin vacibliyini qeyd edib.

# Sankt-Peterburqda MDB ölkələri kinostudiya rəhbərlərinin görüşü

Xəbər verdiyimiz kimi, 21-24 avqust tarixində Rusiyanın Sankt-Peterburq şəhərində "Lendok" Kinostudiyasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər təşkil edilib. Tədbirlərdə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının direktoru Nazim Hüseynov da iştirak edib.

"Azərbaycanfilm"dən verilən məlumata görə, yubiley çərçivəsində Beynəlxalq "Lendok" Film Festivalı keçirilib. Festivalda MDB ölkələrinin studiya rəhbərləri və prodüser mərkəzlərinin, onlayn platformaların nümayəndələri, rejissor, prodüser, kinotənqidçi və jurnalistlər iştirak ediblər.



MDB ölkələri kinostudiyalarının "qızıl kolleksiya"sından filmlər də festival çərçivəsində tamaşaçılara təqdim olunub. Bu sırada "Azərbaycanfilm"in istehsalı olan "İstintaq" (1979, rejissor Rasim Ocaqov) filmi nümayiş etdirilib.

Qeyd edək ki, festival çərçivəsində "Lendok" kinostudiyasında ilk dəfə MDB ölkələrinin kino layihələrinin pitçinqi, həmçinin beynəlxalq konfrans keçirilib.

# Paytaxt kitabxanalarında tədbirlər

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) 6 nömrəli filialı "Kitab bizim dostumuzdur" başlığı altında oxucularla görüş keçirib. Baş idarədən bildirilib ki, kitabxanada uşaqlar üçün dünya ədəbiyyatı nümunələrindən ibarət sərgi də təşkil edilib. Söhbət zamanı kitabxananın fəal oxucuları yay tətilində mütaliə etdikləri kitablar barədə danışıblar. Kitabxanaçı A.Əliyeva uşaqlar üçün "Şuşa" kitabı haqqında da məlumat verib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xəzər rayon MKS-nin 1 nömrəli filialında "Qəhrəmanlarımızı tanıyaq" adlı tədbir keçirilib. Tədbirdə kitabxananın azyaşlı oxucularına 44 günlük Vətən müharibəsi şəhidləri və qazilərinin qəhrəmanlıqları haqqında məlumat verilib.

Yasamal rayon MKS-nin 2 nömrəli filialı "Gəncləri narkotiklərdən uzaq tutaq" adlı maarifləndirici tədbir keçirib. Filialın müdiri Yəmən Əmirova və digər çıxış edənlər narkomaniyanın insan sağlamlığı üçün təhlükəli fəsadları haqqında söz açıb, bəşəri bəlaya qarşı mübarizədə maarifləndirmə işinin vacibliyini vurğulayıblar. Qeyd olunub ki, bu xüsusda mədəniyyət ocaqlarının üzərinə mühüm məsuliyyət düşür. O cümlədən kitabxanalarda narkomaniya mövzusunda tədbirlər keçirilir, sərgilər hazırlanır. Sonda tədbir iştirakçıları mövzu ilə əlaqədar hazırlanmış stendlə tanış olublar.

Yasamal rayon MKS-nin 4 nömrəli filialının birgə təşkilatçılığı və Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyinə həsr olunmuş virtual görüş keçirilib. Görüşə Gəncə, Samux, Şirvan, Şabran, Zərdab, Hacıqabul, Cəlilabad rayonlarının Heydər Əliyev mərkəzlərinin, MKS-nin direktorları və əməkdaşları qatılıblar.



Samux rayon Heydər Əliyev Mərkəzinin direktoru Nuranə Həsənova, Yasamal rayon MKS-nin 4 saylı filialının əməkdaşları İradə Hüseynova, Zərəngiz Mansurova mövzu ilə bağlı çıxış ediblər. Z.Mansurova müəllifi olduğu "Xan qızı" poemasından bir parçanı söyləyib.

# Müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsi keçiriləcək

Mədəniyyət Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi tərəfindən 7 avqust tarixində uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu ilə bağlı test imtahanının keçirilməsi barədə məlumat vermişdik. Test imtahanında qeydiyyatdan keçən 1992 namizəddən 1709 nəfər imtahanda iştirak edib, onlardan 482 nəfər tələb olunan keçid balını toplayaraq müsabiqənin müsahibə mərhələsində iştirak hüququ qazanıb.

Test imtahanında uğurlu nəticə göstərərək müsahibə mərhələsinə buraxılan namizədlər topladıqları bala və ixtisaslarına uyğun olan vakant vəzifələr üzrə müsahibələrdə iştirak etmək üçün 25-29 avqust tarixində qeydiyyatdan keçməlidirlər. Bunun üçün "Müsahibə mərhələsi üzrə vakansiya seçimi müraciət forması"nı (https://bit.ly/3pJmaZL) doldurmaq lazımdır.

Müsahibədə iştirak etmək üçün müraciət etmiş namizədin forma vasitəsilə daxil etdiyi məlumatların tamlığı, həqiqiliyi və namizədin müvafiq vakant vəzifənin tutulması şərtlərinə uyğunluğu yoxlanılacaq, məlumatların düzgünlüyü təsdiq edildikdən sonra namizədə müsahibələrin keçirilmə yeri və vaxtı barədə məlumat veriləcək.

Namizəd müəyyən edilmiş şərtlərə cavab vermədikdə, habelə onun tərəfindən bilərəkdən yanlış məlumatların verilməsi aşkar edildiyi halda namizədin müsahibədə əldə etdiyi nəticələr etibarsız hesab ediləcək.

Müsahibə mərhələsi 5-9 sentyabr tarixində keçiriləcək.

Qeyd edək ki, hər bir namizəd ixtisasına uyğun olaraq maksimum 5 vakant yer seçə bilər. Topladığı bala və müvafiq ixtisasa uyğun vakant yer olmadığı halda namizəd test imtahanı nəticələrinə uyğun olaraq 2 il ərzində Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunan müsahibələrdə iştirak etmək hüququna malikdir.

# Malazgirt Zəfərinin 951-ci ildönümü ilə bağlı tədbirlərdə ölkəmiz də təmsil olunur

Türkiyədə Malazgirt Zəfərinin 951-ci ildönümü təntənəli şəkildə qeyd edilir. Bununla bağlı Muş vilayətinin Malazgirt və Bitlis vilayətinin Ahlat rayonlarında tədbirlər təşkil olunub.

Ahlatın Çarho bölgəsindəki milli parkda "1071 Sultan Alp Arslan otağı" və müxtəlif ölkələrin də təmsil olunduğu 51 çadır qurulub. Azərbaycan üçün çadır milli parkın ən cəlbedici məkanında ayrılıb.

Azərbaycan Qars şəhərindəki Baş Konsulluğu tərəfindən çadırda sərgilər təşkil edilib. Çadırda Qarabağ Zəfərini, eləcə də Şuşa şəhərinin füsunkar görünüşünü əks etdirən fotolar, milli mətbəximizdən nümunələr, yerli məhsullarımız, mədəniyyətimizi və tarixımizi özündə ehtiva edən əsərlər sərgilənir, milli musiqi nümunələrimiz səsləndirilir.



Bitlis valisi Oktay Çağatay, Ahlatın bələdiyyə başqanı Abdülalim Mümtaz Çoban, Türkiyə Oxçular Vəqfinin sədri Əli Heydər Yıldız və digər şəxslər Azərbaycan çadırını ziyarət ediblər.

Xatırladaq ki, Bitlis vilayətinin Ahlat rayonu ərazisində təşkil olunan mərasim müxtəlif bölmələrdən ibarətdir. Ayrı-ayrı ölkələrlə yanaşı, Türkiyənin əksər bölgələri burada təmsil olunur. Türkiyənin tarixi, müasir həyatı, inkişafı bu məkanda geniş təbliğ olunur.

Azərbaycanın Xalq artisti Azərin də Malazgirt Zəfərinin 951-ci ildönümü münasibətilə Ahlatda təşkil edilən konsert proqramında çıxış edib. Konsertə sakinlər və qonaqlar böyük maraq göstəriblər. "Mehtəran" birlikləri "Mehtər marşı" ifaları ilə mərasimdə böyük coşqu yaradıblar.

1071-ci il avqustun 26-da baş verən Malazgirt döyüşündə Səlcuq hökmdarı Alp Arslanın qoşunları Bizans imperatoru Romen Diogen ordusu üzərində tarixi qələbə qazanıb. Bu zəfər Anadolunun qapılarını əbədi olaraq türklərə açıb. Səlcuq dövləti ilə Bizans arasında müqavilə imzalanıb və Şərqi Anadolu torpaqları türklərin nəzarətinə keçib.

# Şuşa soraqlı tədbirlər

Sabirabad RMİ Şirvan şəhər Mədəniyyət Mərkəzinin Şirvan Folklor evi "Mədəniyyət xəzinəmiz Şuşa" adlı tədbir keçirib. Tədbirdə Şuşa haqqında şeirlər səsləndirilib, vətənpərvərlik ruhunda mahnılar ifa edilib.

***




Ağcabədi RMİ Ağdam rayon MKS-nin 50 saylı Şıxbabalı kənd kitabxanasının əməkdaşları "Şuşa – 270" adlı sərgi təşkil ediblər. Sərgidə mədəniyyət paytaxtımız Şuşanın tarixi abidələri, görkəmli şəxsiyyətləri və Milli Qəhrəmanlarına həsr olunmuş kitablar və fotolar nümayiş etdirilib.

***

Tərtər şəhərindəki Heydər Əliyev adına parkda "Şuşa İli" ilə bağlı tədbir keçirilib. İştirakçılar əvvəlcə şəhərin mərkəzi meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Tədbirdə mədəniyyət işçilər Molla Pənah Vaqif və Xurşidbanu Natəvanın obrazlarını canlandırıblar. Kənd mədəniyyət müəssisələrinin özfəaliyyət dərnəkləri tərəfindən "Şuşa İli" ilə bağlı hazırlanmış əl işlərinin sərgisinə baxış keçirilib.



Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova və Şuşanın azadlığı uğrunda döyüşlərdə iştirak edən qazilərimiz çıxış edərək mədəniyyət paytaxtımızın tarixindən, Ordumuzun Vətən müharibəsində Qələbəsindən söz açıblar. RMİ-nin Tərtər rayon nümayəndəliyi tərəfindən hazırlanmış konsert proqramı və rayon uşaq bağçalarının balaca fidanlarının çıxışları alqışlarla qarşılanıb.

# Vətəni canından əziz bilənlər

Gəncə RMİ-nin əhatə etdiyi Goranboy Dövlət Rəsm Qalereyasında hərbi vətənpərvərlik mövzusunda rəsm sərgisi təşkil edilib.

***



Xaçmaz RMİ Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Heydər Əliyev adına rayon Mədəniyyət Mərkəzinin Müşkür kənd Sənətkarlıq klubunun əməkdaşları Vətən müharibəsi şəhidi Fərid Seyfullayevin doğum günü ilə bağlı ailəsini ziyarət ediblər.

***



Ağdaş rayonunun Türyançay qəsəbəsində Birinci Qarabağ müharibəsi şəhidi Sahir Abdullayevin xatirəsinə inşa edilən lövhə açılıb. Mərasimdə şəhidin həyat yolundan danışılıb. Vurğulanıb ki, Sahir Abdullayev 1993-cü ildə Ağdərə istiqamətində gedən döyüşlərdə itkin düşüb.

***

Biləsuvar RMİ Neftçala rayon MKS-nin Aşağı Surra kənd kitabxana filialı və kənd Folklor evinin əməkdaşları Birinci Qarabağ müharibəsi şəhidi Eldar Rəhmanovun ailəsi ilə görüşüblər.

***




Lənkəran RMİ-nin təşkilatçılığı ilə Lənkəran şəhər MKS-də Vətən müharibəsi şəhidi Afərin Qulamzadənin xatirəsinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə çıxış edən Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov 44 günlük Vətən müharibəsində Ordumuzun göstərdiyi şücaətdən danışıb. Sonda Lənkəran rayon Mamusta kənd tam orta məktəbi şagirdlərinin ifasında vətənpərvərlik mövzulu şeirlər səsləndirilib.

# "Muzeyi peşəkardan öyrənək" layihəsi Ağdaşda

Mədəniyyət Nazirliyi tərəfindən əsrlərlə yaşı olan muzey eksponatlarının nəsillərdən nəsillərə ötürülməsi üçün muzey işinin düzgün təşkili və eksponatların mühafizə qaydasına riayət edilməsi, həmçinin dünya muzeylərinin təcrübəsinin region muzeylərində tətbiq edilməsi məqsədilə həyata keçirilən "Muzeyi peşəkardan öyrənək" layihəsi davam edir.



Bu ilin aprel ayından reallaşan layihə çərçivəsində nazirliyin regional idarələrinin əhatə etdiyi muzey və Heydər Əliyev mərkəzlərinin əməkdaşları üçün təlimlər təşkil olunur.

Növbəti təlim-seminar Ağdaş Regional Mədəniyyət İdarəsi (RMİ) Ağdaş rayon Heydər Əliyev Mərkəzində gerçəkləşib. Tədbirdə regional idarənin əhatə etdiyi Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarında fəaliyyət göstərən Tarix-Diyarşünaslıq muzeyləri, ev-muzeyləri, rəsm qalereyası və Heydər Əliyev mərkəzlərinin direktorları, baş fond mühafizləri və elmi işçiləri iştirak ediblər.

Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli və elmi fond işləri üzrə direktor müavini Aida Axundova tərəfindən aparılan seminarda "Muzey sahəsində müasir çağırışlar", "Fond və mühafizə işi", "Dünya muzeyləri" mövzuları üzrə iştirakçılara təlimlər keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Mədəniyyət idarələrindən müxtəlif səpkili xəbərlər



Sumqayıt Regional Mədəniyyət İdarəsi (RMİ) Sumqayıt şəhər MKS-nin M.Ə.Sabir adına kitabxana filialı tərəfindən Sumqayıtdakı "Üfüq" tədris mərkəzində "Yayı kitabla keçirək" layihəsi çərçivəsində "Nağıllar aləminə səyahət" adlı tədbir təşkil olunub. Layihənin məqsədi kiçikyaşlı uşaqları kitabxanaya cəlb etmək, onlara mütaliəni sevdirməkdir.

Layihə üzrə Sumqayıt şəhər Mərkəzi Kitabxanasının Uşaq şöbəsi İsmayıllı rayon MKS-nin Basqal qəsəbə kitabxana filialı ilə açıq havada "Məzuniyyətdə mütaliə yaxşı istirahətin rəhnidir" adlı kitab sərgisi təşkil edib. Sumqayıt şəhər MKS-nin Mərkəzi Uşaq Kitabxanası tərəfindən isə Sumqayıtdakı "Star Academy" tədris mərkəzində Azərbaycanda yaşayan azsaylı xalqların nağılları əsasında "Yeddi rəngli nağıl çələngim" adlı "nağıl saatı" keçirilib.

***



Sabirabad RMİ Sabirabad rayon M.Ə.Sabir adına Mərkəzi Kitabxanada "Qəzənfər Paşayev – 85" adlı tədbir keçirilib. Tədbirdə tanınmış ədəbiyyatşünas alim, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi, yazıçı, tərcüməçi, professor Qəzənfər Paşayevin kitablarından ibarət sərgi nümayiş etdirilib.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək!" adlı maarifləndirici tədbir keçirilib. Tədbirdə mövzu ilə əlaqədar videoçarx nümayiş olunub.

***

Kürdəmir RMİ Beyləqan rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Örənqala kənd Folklor evində "İnsan alveri ümumbəşəri bəladır" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə çıxış edənlər insan alverinə qarşı mübarizə tədbirləri, vətəndaşların insan alveri qurbanına çevrilməməsi üçün əsasən nələri bilmələri haqda geniş məlumat veriblər.



Beyləqan rayon Heydər Əliyev Mərkəzində uşaq və yeniyetmələr arasında bilik yarışmasının final mərhələsi keçirilib. "Qarabağ", "Şuşa", "Xarıbülbül" və "Zəfər" komandalarının iştirak etdiyi yarışmada "Xarıbülbül" komandası qalib olub.

İmişli rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Narkomaniya ümumbəşəri bəladır" adlı tədbir keçirilib. Tədbirdə narkomaniyanın törətdiyi təhlükələr və insan sağlamlığına vurduğu zərərləri özündə əks etdirən "Bəla" adlı sənədli film nümayiş olunub.

***



Şəki RMİ Zaqatala rayon Heydər Əliyev Mərkəzində məktəblilərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə şagirdlərlə görüş təşkil olunub. Əvvəlcə şagirdlər ümummilli liderin həyatını və dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, fotoşəkillər və eksponatlarla tanış olublar. Daha sonra viktorina təşkil edilib, şagirdlər Heydər Əliyev haqqında filmə baxıblar.

***



Gəncə RMİ Gəncə şəhər MKS-nin 2 saylı kitabxana filialı "Gəlin, kitab oxuyaq" başlıqlı kitab sərgisi təşkil edib.

***

Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasında "Xan qızı – Xurşidbanu Natəvan" adlı tədbir keçirilib. Görkəmli şairə, ictimai xadim Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyinə həsr olunan tədbirdə Xan qızının həyat və yaradıcılığının məziyyətləri barədə məruzə və çıxışlar dinlənilib.



Kitabxanada həmçinin tarixçi-etnoqraf, pedaqoq, maarifçi Teymur bəy Bayraməlibəyovun (1862-1937) 160 illiyinə həsr olunmuş tədbir təşkil edilib. Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva, Mərkəzi kitabxananın əməkdaşı Rasif Dadaşov həmvətənlərimizin maariflənməsində mühüm xidmətlər göstərmiş görkəmli ziyalının həyat və fəaliyyəti barədə danışıblar.

Masallı Dövlət Rəsm Qalereyasında yay tətili günlərində yeniyetmələrin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə həftəsonları "Mənim dünyam rənglərdə" başlıqlı məşğələlər təşkil edilir. Məşğələlərdə həvəskarlar rəssam Təhmasib Məcidovdan bu sənətin bəzi incəliklərini öyrənərək öz arzu və istəklərinə kağız üzərində rəngli boyalarla həyat verirlər.

# Bərdədə "Uğur qazananlar"

26 avqust – Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günü münasibətilə Bərdə RMİ tərəfindən Bərdə rayon Mədəniyyət Mərkəzində "Uğur qazananlar" adlı tədbir təşkil olunub.



İdarənin rəisi Vəsilə Möhsümova Azərbaycanın xalq musiqisi və muğam sənətinin tarixi, zənginliyi və müasir inkişaf yolu barədə ətraflı məlumat verib. Deyib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycan muğamının müasir dövrdə inkişafını diqqətdə saxlayırlar. Muğamın UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi də bu diqqətin nəticəsidir.

Daha sonra Muğam Televiziya Müsabiqəsində müxtəlif illərdə iştirak etmiş musiqiçilərin ifasında muğamlar, xalq və bəstəkar mahnıları səsləndirilib, tanınmış Azərbaycan şairlərinin yaradıcılığından nümunələr söylənilib.

Sonda gənc muğam ifaçılarına regional idarə tərəfindən fəxri fərman və hədiyyələr təqdim olunub.

# Şuşaya 10 000-ci sərnişin



Bu ilin yanvarından Bakıdan və Füzulidən Şuşaya birbaşa avtobus reysləri açılıb. Fevral ayından həftədə üç dəfə təşkil olunan reyslər may ayından həftənin yeddi günü (dörd gün Bakıdan olmaqla) həyata keçirilir.

İyul ayından etibarən isə Bakı–Şuşa–Bakı istiqamətində hər gün reys var. Bu müddətdə minlərlə insan mədəniyyət paytaxtımıza səfər edərək otuz ilin həsrətinə son qoyub.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin təşkil etdiyi müntəzəm avtobus marşrutu ilə avqustun 23-də 10 000-ci sərnişin Şuşaya yola salınıb. Əslən şuşalı olan, 5 yaşında ailəsi ilə Şuşanı tərk edən Gülnar Orucova 30 ildən sonra atası Kamal Həsənovla birgə doğma şəhərə səfər edib.

Bakı Beynəlxalq Avtovağzal Kompleksində keçirilən mərasimdə Gülnar Orucovaya "10 000-ci sərnişin sertifikatı" və hədiyyə təqdim edilib.

Gülnarə Orucova qeyd edib ki, ailəsi məcburi köçkün olaraq Qəbələdə məskunlaşıb, buna baxmayaraq onlar Şuşaya bağlı ruhda böyüyüblər: "Şuşa haqqında valideynlərimdən o qədər xatirələr eşitmişəm ki, mənə elə gəlir, bütün ömrümü Şuşada keçirmişəm".

Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Anar Rzayev bildirib ki, işğaldan azad olunmuş ərazilərə 24 yanvar 2022-ci il tarixindən etibarən həyata keçirilən səfərlərə maraq olduqca böyükdür. Qeyd edib ki, Şuşaya, eləcə də Ağdam və Füzuliyə ümumilikdə 312 reyslə 13 mindən çox sərnişin səfər edib: "Bu gün isə Şuşaya 10 000-ci sərnişini yola salırıq".

Qeyd edək ki, müəyyən olunmuş istiqamətlər üzrə bilet satışı www.yolumuzqarabaga.az portalı vasitəsilə onlayn qaydada həyata keçirilir.

# Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun yarısı hazırdır

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol infrastrukturu layihələrindən olan Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun tikinti işləri sürətlə davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanan yolun uzunluğu 39.7 km-dir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Hərəkət hissəsi 14 metr təşkil edir.




Yolboyu 30 km-lik hissədə I texniki dərəcəyə uyğun 21.5 metr enində yol yatağının və yol əsasının inşası icra olunub, 20 km-lik hissəsində isə asfalt-beton örtüyünün döşənməsi işləri yekunlaşıb. Qalan təqribən 9 km-lik hissədə normativ en alınaraq yol yatağı tikilib, 700 metr hissəsində qaya tipli süxurların mexanizmlə kəsilməsi, həmçinin çətin relyefə malik dağlıq ərazidən keçən yolun layihə eninin alınması üçün dağların partladılması üsulu ilə yeni yol yatağının inşası davam etdirilir.

Layihə üzrə suların ötürülməsini təmin etmək məqsədilə nəzərdə tutulan 37 dairəvi boru, 9 düzbucaqlı su keçidi, yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə 7 yolaltı keçid və ehtiyat keçidləri üzrə tikinti işləri sona çatdırılıb.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 2, 19, 20, 27, 31 və 39-cu km-lik hissələrində 6 avtomobil körpüsünün inşası da layihə üzrə icra olunur. 2, 19, 20 və 39-cu km-də körpülərin inşası başa çatıb. Yolun tikintisinin 2023-cü il ərzində yekunlaşdırılması planlaşdırılır.

Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçən avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edir.

# Avstraliyada Azərbaycan tarının vurğunu

## Con Varney: "Şuşada "Sarı gəlin" mahnısını ifa etmək istərdim"




Əgər musiqi bir kainatdırsa, Azərbaycan musiqisi özünün bütün janrları və variantları ilə onun daxilində zəngin qalaktikadır.

Avstraliyalı tanınmış musiqiçi, kontrabas ifaçısı, eyni zamanda Azərbaycan tarının vurğunu Con Varney bu sözləri AZƏRTAC-ın bu ölkədəki xüsusi müxbirinə müsahibəsində deyib.

Azərbaycan musiqisinin heyranı olduğunu vurğulayan musiqiçi Qarabağa səfər etməyi və Şuşada milli musiqimizi ifa etməyi arzulayır.

*– Hörmətli Con Varney, zəhmət olmasa, əvvəlcə özünüz haqqında oxucularımıza məlumat verin.*

– Mən Avstraliyanın Brisben şəhərində yaşayıram və kontrabasda ifa üzrə ixtisaslaşaraq, simli alətlərdə ifanın pedaqogikasını öyrənmişəm. Bu sahənin peşəkarlarından biri kimi tanınıram. Kontrabasda ifanı İtaliyanın çox məşhur ifaçılarından öyrəndikdən sonra altı il Cənubi Amerikada, Kolumbiyada işləmişəm. Bundan sonra Avstraliyaya qayıdaraq ixtisasım üzrə çalışıram.

*– Azərbaycan musiqisinə və tarına maraq sizdə necə yarandı? Ailənizin buna münasibət necə oldu?*

– Mən dünya xalqlarının musiqisinə həmişə böyük maraq göstərmişəm, Latın Amerikası, türk, fars və hind musiqisini ifa etmişəm. 2018-ci ildə Azərbaycana ilk səfərim zamanı musiqi pedaqoqlarının konfransına qatılmaqla yanaşı, axşam saatlarında Azərbaycan musiqisindən ibarət konsertə də getmişdim. Konsertdə populyar xalq mahnıları, köklü şəkildə Azərbaycan janrında improvizə edilmiş klassik musiqi, muğam və hətta caza belə qulaq asmışdım. Müxtəlif musiqi janrlarının yaratdığı güclü təsir, bu musiqinin dərinliyi və genişliyi, sözün həqiqi mənasında, məni valeh etdi. Bu əsrarəngiz ölkənin musiqisini öyrənmək məqsədilə Brisbenə qayıtmazdan əvvəl özümə bir tar aldım. Bu nadir Azərbaycan musiqi alətində ifanı isə "Youtube"dakı çarxlardan öyrənməyə başladım. Lakin bütün cəhdlərə baxmayaraq, böyük uğur qazana bilmədim. Həmin ilin dekabrında Bakıya qayıdaraq, yerli müəllimdən beş həftə ərzində tarda ifanın sirlərinə yiyələndim. İlk olaraq "Bayatı-Şiraz" muğamını və "Sarı gəlin" mahnısını ifa etməyi öyrəndim. Avstraliyaya qayıtdıqdan sonra həmin musiqi nömrələrini yaddaşım əsasında ifa etmək üçün inamla çalışdım. Ailəmə gəlincə isə, onlar mənim bu istəyimə böyük maraqla yanaşaraq, dəstək göstərdi.

*– Azərbaycanda təşkil edilən müxtəlif tədbirlərdə, konsertlərdə çıxışlarınız tamaşaçılar tərəfindən böyük alqışlarla qarşılanıb. Bəs tarda ifa Avstraliyada necə qarşılanır?*

– Mən özümü bu sahəni yeni öyrənməyə başlayan həvəskar hesab edirəm. Mənim əsas alətim kontrabas olduğuna görə, Azərbaycan musiqisini əsasən bu alətdə ifa edirəm. Tarda isə xüsusi tədbirlərdə, kiçik kampaniya qarşısında ifa edirəm. Bunun səbəbi isə həmin musiqi alətinin Avstraliyada çox da tanınmaması ilə bağlıdır. Həmçinin düşünürəm ki, Azərbaycan musiqisini anlamaq istəyirsinizsə, onda mütləq bu musiqini milli alətdə ifa edilərkən dinləməlisiniz.

*– Dediniz ki, tarda ifanı öyrənmək məqsədilə Azərbaycana getmisiniz. Müəlliminiz haqqında da məlumat verərdiniz.*

– Tarda ifanı mənə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Səxavət Məmmədov öyrədib. Mən onu müəllimim olmaqla yanaşı, virtuoz bir ifaçı kimi də tanıyıram. O, bir çox xarici ölkələrdə təşkil edilən konsertlərdə uğurla çıxış edib. Biz onunla hərn onlayn formatda əlaqə saxlayırıq, həm də Azərbaycana hər səfərim zamanı mütləq görüşürük. İşinin çoxluğuna baxmayaraq, o, hər dəfə mənim üçün vaxt ayırır və mən buna görə ona çox minnətdaram. Səxavət müəllim mənə tarda ifa ilə yanaşı, Azərbaycan dilini öyrənməkdə də yaxından kömək edib.

*– Bakıda yerli telekanala müsahibə zamanı Qarabağ, bu qədim Azərbaycan torpağı barədə də fikir bildirmisiniz. Azərbaycan mədəniyyətinin beşiyi Şuşaya səfər etsəniz, orada hansı musiqi nömrəsini ifa edərdiniz?*

– Bakıya səfərlərimin birində üzərində "Qarabağ Azərbaycandır!" sözləri yazılmış köynək almışam. Onu geyinməyi çox sevirəm. Azərbaycanlı dostlarımla bir yerə toplaşanda da biz birlikdə bu şüarı səsləndirməyi çox sevirik – Qarabağ Azərbaycandır! Qarabağa getmək arzumu isə müəllimim Səxavət Məmmədova çoxdan demişəm və ilk imkan yaranan kimi böyük məmnuniyyətlə oraya səfər etmək istəyirəm. Bu mənim Azərbaycan ilə əlaqəli ən böyük arzularımdan biridir. Şuşada isə "Sarı gəlin" mahnısını ifa etməyi düşünürəm.

*– Azərbaycan musiqisini öyrənmək çətindirmi? Əsasən hansı mahnıları bəyənirsiniz?*

– İstənilən musiqini peşəkar səviyyədə öyrənmək böyük zəhmət tələb edir. Düşünürəm ki, Azərbaycan musiqisi barədə biliklərim hazırda minimum səviyyədədir. Mən deyərdim ki, musiqi bir kainat qədər sonsuzdur və onu tamamilə anlamaq mümkün deyil. Bu mənada Azərbaycan musiqisi özünü bütün janrları və variantları ilə bir nəhəng qalaktikanı xatırladır. Mən muğamı ifa etməyə bacarsam da, bu heç də mənim onun tamamilə başa düşməyim anlamına gəlməməlidir. Fikrimcə, mən Azərbaycan musiqisini tam anlamaq üçün bu gözəl ölkədə azı bir neçə il yaşamalı və tanınmış ustadlardan dərs almalıyam. Mən buna əminəm.

Qeyd etdiyim kimi, mənim əsas ifa etdiyim alət kontrabasdır və bu məndən həmin alətlə daha ciddi məşğul olmağımı və ifamı təkmilləşdirmək üçün daha uzun müddət məşq etməyi tələb edir. Doğrusunu deyim ki, mənim xüsusi sevgi ilə yanaşdığım mahnı çoxdur, çünki mən Azərbaycan musiqisini bütün spektrləri ilə sevirəm. Məsələn, "Görüş" filmindəki "Arzular" mahnısı üçün kontrabasda aranjirovkam tamaşaçılar tərəfindən həmişə sürəkli alqışlarla qarşılanır.

*– Bu ilin mayında Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar tədbirdə milli musiqi nümunələrini ifa etmisiniz...*

– Brisbendə yaşayan Azərbaycan icması üzvlərinin sayının az olmasına baxmayaraq, Müstəqillik Günü ilə bağlı bir yerə toplaşaraq bu böyük bayramı qeyd etmək hamı üçün çox sevindirici oldu. Tədbir zamanı mən "Bayatı-Şiraz" muğamını, "Sarı gəlin" mahnısını və bir neçə digər əsəri ifa etdim. İştirakçılar ifamı sürəkli alqışlarla qarşıladılar. Mən bu diqqəti və hörməti həqiqətən də çox yüksək qiymətləndirirəm.

*– Bəs Avstraliyada Azərbaycan musiqi alətlərində ifa etmək istəyənlər, tarda ifanı öyrətdiyiniz tələbələr varmı?*

– Təəssüf hissi ilə qeyd etmək istərdim ki, Avstraliyada Azərbaycan musiqisi barədə məlumatı əldə etmək, milli musiqi alətlərində ifanı öyrənmək istəyənlər azdır. Avstraliyada Azərbaycan musiqisini təbliğ edən, milli musiqi alətlərini təqdim edən elə bir mərkəz də yoxdur. Amma düşünürəm ki, zaman keçdikcə bu istiqamətdə dəyişikliklər baş verəcək və şəxsən mən buna yardım etmək üçün əlimdən gələni etməyə hazıram.

*– Gələcək fəaliyyət və konsertlər haqqında planlarınızı bilmək maraqlı olardı.*

– Avstraliyada Azərbaycanı yaxşı tanımadıqlarına görə mən öz fəaliyyətimi ilk növbədə sizin ölkəniz haqda məlumatları daha geniş kontekstdə yayılması istiqamətində qurmağa çalışıram. Bu məqsədlə cari ilin sonlarında "Daxili dənizlərin musiqisi" adlı konsert proqramı ilə çıxış etməyi planlaşdırıram. Həmin konsert zamanı Xəzər, Qara və Aralıq dənizlərinin sahillərində yaşayan xalqların – Türkiyə, Gürcüstan, Qazaxıstan, İran, İtaliya və digər ölkələrin musiqi nömrələrini tamaşaçılara təqdim edəcəyik. Təbii ki, həmin konsertdə Azərbaycan musiqisinə də xüsusi yer ayrılacaq.

Bununla yanaşı, Azərbaycandan özümlə gətirdiyim milli musiqi haqda əsərləri də öyrənməyə çalışıram. Düşünürəm ki, həmin kitablar sizin zəngin musiqi mədəniyyətiniz haqda biliklərimi artırmaqla yanaşı, onun Avstraliyada təbliği işinə də yardım edəcək.

# "Kino ona böyük sevgi ilə sarılanlara uğur qazandırır"

## Nadir Əliyev: "Film sənayesinin inkişafı üçün müasir menecment tətbiq olunmalıdır"

Yarandığı gündən insanların dünyagörüşünü formalaşdıran, hər bir xalqın tarixini, milli adət-ənənəsini yaşadan, həyatın bütün sahələrinə nüfuz edən kino sənəti bəşəriyyətin ən maraqlı kəşflərindəndir. Kinonun üstünlüyü əyaniliyində, inandırma gücündə və böyük təsirə malik olmasındadır.

Müxtəlif sənətlərin sintezi olan kino özündə bir neçə sahəni birləşdirir. Bir filmin ərsəyə gəlməsində ssenarist, rejissor və aktyorlardan savayı, rəssamdan bəstəkara, işıqçıdan qrimçiyə qədər onlarla insanın zəhməti olur. Bu işdə, sözsüz ki, film direktorlarının da əməyi az deyil. 70 illik ömrünün yarım əsrdən çoxunu bu sahəyə həsr edən Əməkdar mədəniyyət işçisi Nadir Əliyev qəzetimizə müsahibəsində film direktoru işinin özəllikləri haqqında danışdı.

Nadir Əliyevin yaradıcılıq tərcümeyi-halına 40-dan artıq film daxildir. "Həyat bizi sınayır" (1972) filmində inzibatçı, "Alma almaya bənzər"də (1975), "Günlərin bir günü..." (1976) kinoalmanaxına daxil olan "Süita" novellasında və digər ekran əsərlərində film direktorunun müavini kimi çalışıb. 1978-ci ildən etibarən müxtəlif janrlı bədii filmlərdə – "Təkcə adanı özünlə apara bilməzsən" (1980), "Qorxma, mən səninləyəm!" (1981), "Atları yəhərləyin" (1985), "Bəyin oğurlanması" (1985), "Şəhərli biçinçilər" (1985), "Bircəciyim" (1986), "Yaramaz" (1988), "Şəhid qız" (1990), "Şeytan göz qabağında" (1987), "Təhminə" (1993), "Həm ziyarət, həm ticarət" (1995), "Otel otağı" (1998) və s. filmlərin direktoru olub. "Dronqo" (2002, NTV, Rusiya), "Məkanın melodiyası" (2004), "Məhkumlar" (2006), "Günaydın, mələyim" (2008), "Kabusun gözüylə" (2010), "Dolu" (2012), "Qorxma, mən səninləyəm! 1919" (2013), "Axınla aşağı" (2014) və başqa filmlərdə icraçı prodüser kimi fəaliyyət göstərən kino xadimi daim işinə böyük sevgi və məsuliyyətlə yanaşıb, həmkarlarının rəğbətini qazanıb.

Nadir Məmmədağa oğlu Əliyev 5 avqust 1952-ci ildə Bakıda anadan olub. 1970-ci ildən kino sahəsində fəaliyyət göstərməyə başlayıb. Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Kino iqtisadiyyat fakültəsində təhsil alıb. Uşaqlıq illərindən izlədiyi "Uzaq sahillərdə" filmi onu bu sahəyə yönəlməyə sövq edib.

Kino sahəsinə marağının isə qaynağını belə xatırlayır: "Yay aylarında biz həmişə bağa gedirdik.



Mühasib işləyən bir bağ qonşumuz var idi. Həmin vaxtlarda az adamın evində televizor olardı. Kimin evində televizor var idisə, qonşular maraqlı veriliş və filmləri onun evində izləmək üçün yığışardı. Bir gün uşaqlar həvəslə "davalı film" olacağından danışır, axşam televizorda göstəriləcəyini deyirdilər. Hamı kinoya baxmaq üçün dağılışanda mən də televizora baxmağa həmin qonşumuza getdim. Qapını nə qədər döydümsə, heç kim açmadı. Onların uzun bir eyvanı var idi. Televizoru da həmin eyvanın bir küncünə qoymuşdular. Mən ayağımın altına daş qoyub hasarın başından "Uzaq sahillərdə" filmini izləməyə başladım. Həmin gün yağış da yağırdı. Mənə bərk soyuq oldu. Film bitəndən sonra üst-başım nəmli evə getdim. Anam məndən nə olduğunu soruşanda əvvəlcə ona heç nə demədim. Bir qədər keçdikdən sonra olanları danışdım. Ertəsi gün uşaqlarla həyətdə futbol oynayırdıq. Bir də gördüm atam dostunun "Pobeda" markalı maşını ilə gəldi və maşının yük yerindən böyük bir yeşik çıxardı. Atam evə televizor almışdı. Bu hadisə mənim və qardaşlarım üçün böyük bir bayrama çevrildi, sevincimizin həddi-hüdudu yox idi...".

Nadir Əliyevin kinonun bu günü ilə bağlı narazılıqlara öz münasibəti var: "Bu gün hamı deyir niyə bu sahə zəifləyib, filmlər az çəkilir. Bu barədə birmənalı danışmaq olmaz. Kino birbaşa iqtisadiyyat və maliyyə ilə əlaqəlidir. Son 20 ildə həyatımızda nə qədər böyük yeniliklər, necə deyərlər, inqilabi hadisələr baş verdi. Sosial şəbəkələr yarandı, internet gücləndi və çoxsaylı audiovizual əsərlər ortaya çıxdı və bütün bu mübadilədə kinonun yaşaması çox çətinləşdi. İqtisadi problemlər kinoya təsir edir. Təkcə Azərbaycanda deyil, keçmiş sovet ölkələri də bu problemlərlə üzləşdi. İnsan gərək gələcəyə ümidlə baxsın. Hesab edirəm ki, kinomuzun gələcəyi var. Yeni istedadlar yetişir və kinomuzun inkişaf edəcəyinə şübhə etmirəm".

*– Nadir müəllim, 50 ildən artıqdır ki, kino sahəsində çalışırsınız. Film direktoru sahəsinə marağınız necə yarandı? Ümumiyyətlə, instituta qəbul olunanda sahənin mahiyyətindən xəbəriniz vardımı?*

– İnsan bəzən getdiyi yolda səmti dəyişməli olur. Mən də uşaqlıqdan kino ilə çox maraqlanırdım. Bir gün yay vaxtı Buzovnada bağımızın yanında "Lenfilm" Kinostudiyasının çəkiliş qrupu "Mənim xeyirxah atam" filminin çəkilişlərini aparırdı. Filmin rejissoru ilə tanış oldum, ona kinonu çox sevdiyimi söylədim və Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rejissor fakültəsində oxumaq arzusunda olmağımı söylədim. Mənə dedi ki, çox cavansan, gərək kinoda təcrübən ola. Məktəbi bitirəndən sonra sənədlərimi Dövlət Kinematoqrafiya Komitəsinə verdim. Orda bəlli oldu ki, əlavə yaradıcı işlər təqdim etməliyəm, iş təcrübəm olmalıdır və mənə Kino iqtisadiyyatı fakültəsində oxumağı təklif etdilər. Dedilər ki, bizim bu sahəyə ehtiyacımız var. Razılaşdım. İmtahanları yaxşı verdim. Azərbaycandan olan, balı məndən aşağı, özü isə partiya üzvü və əsgərlikdən qayıdan oğlanla müsabiqəyə düşdüm. Mənə görə əlavə yer açdılar və 1970-ci ildə mən qiyabi, həmin oğlan isə əyani şöbəyə qəbul olundu. Maraqlısı da budur ki, həmin oğlan oxuyub qayıdandan sonra cəmi bir neçə ay kinostudiyada çalışdı və kino sahəsini tərk etdi. Mən qəbul olduğum ildən də kinostudiyada işləməyə başlamışdım. Necə deyərlər, kino yalnız ona böyük sevgi ilə sarılanlara uğur qazandırır. İlk ekran işim rejissor Tofiq İsmayılovun lentə aldığı "Oxuyur Müslüm Maqomayev" filmi oldu. Məni filmə inzibatçı kimi təsdiq etdilər. Həmin filmdə epizodik rolda da çəkildim. İkinci işlədiyim film isə Şamil Mahmudbəyovun "Həyat bizi sınayır" filmi oldu.

*– O vaxtdan birdəfəlik bu sahəyə bağlandınız...*

– 1971-də hərbi xidmətə getdim. Qayıtdıqdan sonra Hüseyn Seyidzadənin "Qatır Məmməd" filmində inzibatçı oldum. Amma mənə bəlli olmayan səbəblərə görə, filmi daha sonradan Rasim Ocaqov çəkdi. 1974-cü ildə Maqsud və Rüstəm İbrahimbəyov qardaşları və Yuli Qusmanla "Günlərin bir günündə" kinoalmanaxında işlədim. Beləliklə, filmdən-filmə təcrübə yığdım. Film direktoru kimi təmmətrajlı kinolentdə ilk müstəqil işim isə rejissor Gülbəniz Əzimzadənin "Təkcə adanı özünlə apara bilməzsən" filmi oldu.

*– Film direktorunun işi haradan başlayır?*

– Şübhəsiz ki, kino istehsalının bütün mərhələlərindən anlayışın olmalıdır. O cümlədən maliyyədən, ölkənin qanunlarından, dünya kinosunun yeniliklərindən xəbərdar olmalısan. Yəni film direktoru olmaq o deməkdir ki, hərtərəfli savadlı olmalısan, çünki sən böyük kollektivə rəhbərlik edirsən.

*– Filmin bütün maliyyəsi də sizə həvalə edilir?*

– Keçmiş sovet dövründə film direktorunun səlahiyyəti daha çox idi. Filmin baş smetasına əsasən, vəsaitin düzgün xərclənməsinə birbaşa filmin direktoru cavabdehdir. Hər bir filmin ssenarisinə əsasən öz smetası olmalıdır. Yəni kino bir elmdir. Burada texniki vəsait, yaradıcı iş, maliyyə var. Həmçinin hərtərəfli bilgi də vacibdir. Azərbaycanda kino sahəsində yerli, milli kadrların formalaşması XX əsrin 40-cı illərinin sonunda təşəkkül tapıb. Moskvada Kinematoqrafiya İnstitutunda peşəkar rejissorlar, təsvir rejissorları, kino rəssamları o biri texniki peşələr üzrə mütəxəssislər hazırlandı. Amma o dövrdə kino sənayesi, ümumiyyətlə bu proses əsasən Moskvadan idarə olunurdu. Azərbaycan kinosunun renessans dövrü 60-70-ci illərdə oldu. Bir-birindən gözəl filmlər yarandı. Lakin 90-cı illərin əvvəlində böyük bir sistem dağıldı, iqtisadi əlaqələr qırıldı. Qarabağın işğalı da kinonun inkişafına öz böyük təsirini göstərdi. Bu gün tamaşaçını kinozala qaytarmaq üçün maraqlı mövzu olmalıdır.

*– Rejissorların film direktoruna münasibəti necə olur?*

– Əslində, rejissor və filmin direktoru münasibətdə səmimi olmalı, bir-birinin işinə müdaxilə etməməlidir, bir yerdə çalışıb, dəstək olub yaxşı film yaratmalıdırlar. Bu gün film direktoru artıq icraçı prodüser kimi təqdim olunur.

*– Sizcə, bu gün kino sahəsindəki müəyyən durğunluq kino siyasəti ilə bağlıdır?*

– Dediyim kimi, iqtisadi və siyasi problemlər kinomuzun müstəqil inkişafına mane oldu. Bu təkcə bizdə belə olmadı. Bütün keçmiş SSRİ məkanında bu vəziyyət müşahidə olundu. Bəziləri tez qalxa bildi, bəzilərində ləngimələr oldu. Əvvəldə də dedim, bu sahənin inkişafında dünyagörüşü də mühüm faktdır. Harada nə baş verir, hansı ölkənin kinosu hansı vəziyyətdədir bunları bilmək vacibdir. İndi hamı deyir ki, kino gəlir gətirməlidir. Bəli, gətirməlidir. Birincisi, kino elə bir sahədir ki, vəsaitsiz, kino istehsalını qurmaq mümkün deyil. Filmi çəkməkdən başqa onun yayımını təşkil etmək lazımdır. Kinozallar, reklam işləri, peşəkar yaradıcı və texniki heyət hazırlanmalıdır və ümumi mərkəzi idarəçilik olmalıdır. Bir sözlə, film sənayesinin inkişafı üçün müasir menecment işi tətbiq olunmalıdır. Yəni pul qazanmaq üçün bu şərtlər vacibdir. Bunun üçün, şübhəsiz, vaxt da lazımdır. Həm də etiraf edək ki, biz kino ölkəsi deyilik.

*– Bəs kino bazarı niyə yoxdur?*

– Fransada təqribən 60 milyon əhali var. Ötən il onlar 400 film çəkiblər. Deməli, 150 min əhaliyə 1 film düşür. Bizdə isə 10 milyon əhali var. Ötən il, deyəsən, 3 film çəkilib. Bunu da nəzərə alsaq ki, kinoteatrların sayı azdır, xüsusi kinozallar yoxdur və ən əsası, bu gün internet şəbəkəsi kinonu əlimizdən alıb. İnsanlar kinonu internet üzərindən daha çox izləyirlər. Bizdə mentalitet məsələləri mütləq nəzərə alınır. Ölkəmizdə Avropanın çəkdiyi film çəkilə bilməz. Bu gün kino daha çox kommersiya deməkdir, sənət qıraqda qalıb. Bir müddət əvvəl bizdə komediyalar çəkildi və insanlar yoruldu artıq. Eyni aktyorlar bu filmdən o filmə keçdi, ancaq tamaşaçı yenilik görmədi. Cəmiyyətin zövqünü formalaşdırmaq lazımdır. Kino birinci növbədə ədəbiyyatdır. Ədəbiyyatın inkişafı, gözəl əsərlərin yaranması kinoya böyük təkan olar. Əfsuslar olsun ki, dünyada kino siyasət və kommersiya alətinə çevrilib. İnanıram ki, Azərbaycan kinosunun gələcək inkişafı özəl kinoda olacaq.

*– Filmlərimizlə bağlı maraqlı xatirələriniz də var yəqin...*

– Əlbəttə var. "Alma almaya bənzər" filmindəki almaların əksəriyyəti rekvizitdir, alma deyil. Rəhmətlik Mais Ağabəyovla Moskvada fabrikdə butafor sifariş vermişdik. Bir qismini Ukraynanın "Dovjenko" studiyasından gətirmişdik. "Yuxu" filmi çəkilib neçə illər "Mosfilm"də qalmışdı. O vaxt mən "Azərkinovideo" rəhbərliyinin göstərişi ilə gedib filmi çap edib Bakıya gətirdim. Rəşid Behbudovla "1001 qastrol" filminin çəkilişi ilə bağlı çoxlu unudulmaz xatirələrim var. Xoşbəxt insanam ki, məşhur sənətkarlarla çalışmışam.

*– Ən bahalı filminiz hansı olub?*

– Sovet dövründə ən bahalı filmim "Qorxma, mən səninləyəm!" (1981) olub. İkiseriyalı filmin büdcəsi 550 min rubl idi. O dövr üçün böyük məbləğ idi. Müstəqillik dövründə direktoru olduğum filmlərə gəldikdə isə, "Dolu" filmini (2012) qeyd edə bilərəm: 1 milyon 300 min manat. Elə olub ki, bir vaxtda iki filmə məni direktor təyin ediblər. Bu da rejissorların istəyi ilə olub.

*– Pulu çatmayan filminiz olubmu?*

– Olub. Hüseyn Mehdiyevin "Məkanın melodiyası" filminə ayrılan vəsait az idi, dedim ki, pul çatmır. Filmin istehsalına başlamazdan əvvəl peşəkar direktor düz hesablama aparmalıdır. Ssenarini oxuyursan və bilirsən ki, nə qədər pul lazım olacaq.

*– 70 yaşınız tamam oldu. Kinoya bağlı bir ömür yaşamışınız...*

– Rejissor olmaq arzusu ilə kinoya gəlib film direktoru oldum. 50 ildən artıqdır ki, bu işdə çalışıram. Hazırda həm də Mədəniyyət və İncəsənət Universitetində dərs deyirəm.

*– Yubileyiniz münasibətilə sizi təbrik edir, cansağlığı, uğurlar arzulayırıq.*

– Sağ olun, mən də göstərdiyiniz diqqətə görə təşəkkür edirəm.

**Lalə Azəri**

# Nəğmələri ilə könüllər oxşayan bəstəkar

Ağabacı Rzayeva. Azərbaycan musiqisevərlərinin yaxşı tanıdığı bu ad həmişə xoş duyğular, qəlboxşayan nəğmələrlə assosiasiya olunur. O, milli bəstəkarlıq məktəbinin inkişafına töhfə verib, dəyərli əsərləri ilə onu zənginləşdirib. İlk qadın bəstəkarlarımızdan olan sənətkarı anadan olmasının 110 illiyi münasibətilə xatırlayırıq.

Ağabacı İsmayıl qızı Rzayeva 15 dekabr 1912-ci ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. O, dövrünün məşhur tarzəni Mirzə Fərəcin nəvəsidir. Ağabacı erkən çağlardan musiqiyə maraq göstərir. Təəccüblü də olsa, Mirzə Fərəc ailə üzvlərinin bu sahə ilə məşğul olmasını istəmir. Ona görə də ilk vaxtlarda Ağabacı musiqi ilə məşğul ola bilmir. Diqqətini orta məktəb dərslərinə yönəldir. Məktəbi bitirdikdən sonra Pedaqoji Texnikuma qəbul olunur. Təhsilini 1929-cu ildə başa vurub təyinatla Maştağa, Kürdəxanı və Saray kəndlərində müəllimlik edir.

Babası vəfat edəndən sonra atası qızlarına fərdi qaydada musiqi məşğələri keçirilməsinə şərait yaradır. Ailəyə yaxın dost olan Üzeyir Hacıbəyli Ağabacı və bacısı Ruqiyyənin istedadını görür və hər ikisini Musiqi Texnikumuna qəbul edir. Onlar təhsil müəssisəsində Mirzə Mənsur, Səid Rüstəmov və Üzeyir Hacıbəylidən sənətin sirlərini öyrənirlər.

Araşdırmalarda qeyd edilir ki, 1934-cü ilin bir payız günü Ağabacının atası İsmayıl kişi evə gəlir və deyir: "Üzeyir bəy konservatoriyada Xalq musiqisi şöbəsi açıb. Heç bir ailə öz qızını konservatoriyaya oxumağa icazə vermir. O, mənə dedi ki, qızlarımı onun yanına aparım. Musiqi qabiliyyətlərini bir daha yoxlayaq. Məsləhət olsa, konservatoriyada oxusunlar".

Həmin dövrdə Ağabacı Rzayeva ilk əsərini – "Gənc vətənpərvərlər" marşını bəstələyir. Əsəri dinləyən Üzeyir bəy gənc Ağabacıya konservatoriyanın Bəstəkarlıq şöbəsinə daxil olmağı məsləhət görür. O, dahi bəstəkarın məsləhətinə qulaq asır. Əvvəlcə Üzeyir bəydən, daha sonra Qara Qarayevdən bəstəkarlıq dərsləri alır. Əsasən mahnı və romanslara diqqət ayırır. Onun yazdığı uşaq mahnıları "Kukla", "Qaranquş", "Balaca kapitan", "Bakı metrosu", "Qərənfiləm mən", "Ağ göyərçinim" və s. mahnıları bu gün də uşaqlar tərəfindən maraqla qarşılanır.

Görkəmli bəstəkarın yaradıcılığında əmək və uşaq mahnıları ilə yanaşı, lirik əsərlər də yer alır. Onların arasında dillər əzbəri olan "Evimizə gəlin gəlir", "Toy mahnısı", "Telli sazım", "Şuşanın yolları" və başqaları musiqisevərlər tərəfindən maraqla qarşılanır. Bəstəkarın qəhrəman neftçilərimizin əmək qəhrəmanlığını tərənnüm edən "Neftçi Qurban", "Oxuma, gözəl", "Çoban Qara", ilk dəfə Moskvada səslənən "Kukla" mahnısı ona geniş şöhrət qazandırır.

O, eyni zamanda bir çox mahnı və romansın, həmçinin "Höcət eləmə" (İsmayıl Quliyevlə birgə) musiqili komediyasının, xalq çalğı alətləri orkestri, simli kvartet üçün pyes və simfonik əsərlərin, İ.Nəsiminin sözlərinə bəstələdiyi 7 romansın və s. müəllifidir. Ağabacı Rzayeva daha geniş auditoriyaya ünvanlanan "Çiçəklənən yurdum", "Azərbaycan", "Bəxtiyar ellər", "Dilbərim" adlı əsərlərini xor üçün bəstələyib.

Azərbaycan caz-muğam sənətinin əsasını qoyan görkəmli pianoçu Vaqif Mustafazadə bəstəkarın "Ey pəri" və "Evimizə gəlin gəlir " kimi məşhur əsərlərinə müraciət edib.


Ağabacı Rzayeva (sağdan üçüncü) musiqi xadimləri ilə

Ağabacı Rzayeva uşaq mahnıları ilə yanaşı, "Günəşin eşqi" adlı pyes də yazıb. Xalq artisti Əfrasiyab Bədəlbəyli 12 iyun 1954-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi məqalədə yazır: "Son zamanlar Səid Rüstəmov, Fikrət Əmirov, Soltan Hacıbəyov, Ağabacı Rzayeva, Qənbər Hüseynli və başqa bəstəkarlarımız uşaqlar üçün də bir sıra yaxşı mahnılar bəstələyiblər. Qənbər Hüseynlinin "Cücələrim", Ağabacı Rzayevanın "Pioner", "Şən yolka", "Gənc maşinistlər" mahnısı və s. Bu mahnılar azyaşlı uşaq və məktəblilər tərəfindən sevilə-sevilə oxunur".

Musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri yüksək qiymətləndirilən Ağabacı Rzayeva 1960-cı ildə "Əməkdar incəsənət xadimi" adına layiq görülür. İki dəfə "Qırmızı Əmək bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilir.

Həm də ictimai xadim kimi fəaliyyət göstərən sənətkar üç çağırış Bakı Sovetinin, 1963-cü ildə isə Azərbaycan SSR Ali Sovetinin deputatı olub.

Bəstələri bu gün də dillərdə dolaşan Ağabacı Rzayeva 5 iyul 1975-ci ildə, 63 yaşında Bakıda vəfat edib, II Fəxri xiyabanda dəfn olunub.

**Savalan Fərəcov**

# Bir sənətkar vardı...

Avqustun 21-i Lənkəran Dövlət Dram Teatrının aparıcı səhnə ustası, Əməkdar artist Təvəkkül Əliyevin xatirə günü idi. Yaşasaydı 71 yaşını qeyd edəcəkdi...

Onlar 13 nəfər idilər – Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Kino və dram aktyorluğu fakültəsinin 13 məzunu. Azərbaycanın görkəmli teatr və kino rejissoru, aktyor və pedaqoqu Adil İsgəndərovun kursunu bitirən kimi onların hamısını təyinatla Lənkərana teatr açmağa, daha dəqiq desək, bu cənub şəhərində vaxtilə fəaliyyət göstərmiş Dövlət Dram Teatrının işini bərpa etməyə göndərmişdilər. İki-üç ildən sonra Lənkərana teatr açmağa gələnlərin əksəriyyəti əyalət şəhərinin çətinliklərinə dözməyərək Bakıya qayıtdı.

Üç nəfər – sədaqətli ömür-gün yoldaşları olan Xalq artisti, Prezident mükafatçısı Böyükxanım Əliyeva ilə Əməkdar artist, "Tərəqqi" medallı Təvəkkül Əliyev və bir də uzun müddət bu sənət ocağına rəhbərlik edən Əməkdar artist Elşad Zeynalov öz talelərini Lənkərana bağladılar. Onlar istər həyat yollarında, istərsə də sənətdə əldə etdikləri nailiyyətləri məhz Lənkəranda qazandılar. Buradaca ailə qurub, ev-eşik və ad-san sahibi oldular. Elşad Zeynalov 2007-ci il yanvarın 5-də, 56 yaşında dünyasını dəyişdi. On bir il sonra, 2017-ci ilin 23 yanvarında isə Təvəkkül Əliyev bu dünyanı tərk edərək əbədiyyətə qovuşdu...

Təvəkkülü Lənkəranda hamı tanıyır və sevirdi. O da qarşılıqlı olaraq bu diyara qəlbən bağlanmış, özünə çoxlu dost qazanmışdı. Söhbət düşəndə bəzən zarafatyana dağları göstərib: "Odur ey, oralıyam – Barzavuluyam", – deyərdi (Barzavu – Lerik rayonunda dağ kəndi – red.).

Onu teatrda aktyor kimi işə başladığı dövrdən tanıyırdım. İndiki kimi yadımdadır. 1973-cü il dekabrın 6-da yenicə fəaliyyətə başlayan Lənkəran Dövlət Dram Teatrının tamaşa zalına iynə atsaydın, yerə düşməzdi. Kəndli-şəhərli yüzlərlə insan teatrın ilk tamaşasına baxmağa gəlmişdi. Onların arasında Bakıdan dəvət olunan tanınmış sənətçilər, ziyalılar, şair və yazıçılar, o cümlədən "Yaxşı adam" əsərinin müəllifi rəhmətlik Mirzə İbrahimovla onun ailə üzvləri də vardı. Gənc aktyor Təvəkkül Əliyev teatrın pərdəsini açaraq titrək addımlarla səhnənin qarşısına çıxdı və özünəməxsus gur səslə Lənkəran Dövlət Dram Teatrının fəaliyyətə başlaması münasibətilə tamaşaçıları təbrik etdi. Sonra sürəkli alqışlar altında tamaşa başlandı.



Həmin gün gənc aktyorların hamısı rollarının öhdəsindən layiqincə gəldilər. Təvəkkül Əliyev isə Azər rolunun ifası ilə teatra parlaq fərdi xüsusiyyətlərə malik olan qeyri-adi bir aktyorun gəldiyini nümayiş etdirdi. İllər ötdükcə aktyor xaraktercə bir-birindən fərqli rollarla çıxış etdi, tamaşaçıları gah güldürdü, gah düşündürdü, gah da göz yaşlarına qərq etdi. Tamaşadan tamaşaya özü də püxtələşdi, müdrikləşdi.

İş elə gətirdi ki, günlərin bir günü Lənkəran teatrında çalışmalı oldum və bundan belə Təvəkkül Əliyevin yaradıcılığını daha yaxından izləmək imkanı əldə etməklə yanaşı, həm də onun iç dünyasını tanımağa başladım. Son 5-6 ildə isə bizi onunla mehriban dostluq telləri bağlamışdı.

Təvəkkül məsuliyyətli aktyor idi. Rolunun üzərində az qala əsirdi, yaratdığı obrazı, sadəcə, səhnədə ifa etməklə işini bitmiş hesab etmirdi. Hələ məşq prosesində qəhrəmanın yaşadığı tarixi dövrü, mühiti və s. öyrənib mənimsəyirdi.

Söhbət düşəndə deyirdi ki, məni Lənkəranda saxlayan tamaşaçı məhəbbəti və qayğısı olub: "Bəzən Böyükxanımla (aktyorun ömür-gün yoldaşı, Xalq artisti Böyükxanım Əliyeva – A.B.) bir neçə günlüyə Bakıya getmişik, amma Lənkəran üçün, tələbkar tamaşaçılarımız üçün darıxdığımızdan müddətdən əvvəl geri qayıtmışıq. Qürur hissi keçirirəm ki, məhz Lənkəran teatrının səhnəsində öz sözünü demiş, püxtələşmiş aktyor səviyyəsinə ucala bilmişəm. İndinin özündə belə yolda, küçədə tamaşaçılarla qarşılaşarkən onlar bizə oynadığımız rolların adları ilə müraciət edirlər. Belə tamaşaçını necə sevməyəsən? Belə şəhəri, belə teatrı necə tərk edəsən?".

Doğrudan da, o, ömrünün sonuna kimi əhdinə sadiq qaldı, Lənkəranı tərk edib heç bir yerə getmədi. Teatrın səhnəsində isə 100-dən artıq rolda çıxış etdi: Aydın ("Aydın", C.Cabbarlı), İldırım Bəyazid ("Topal Teymur", H.Cavid), Anton Antonoviç ("Müfəttiş", N.Qoqol), Ezop ("Ezop", Fiqereydo), Nəcəf bəy ("Dağılan tifaq", Ə.Haqverdiyev), Şeyx Nəsrullah ("Ölülər", C.Məmmədquluzadə), Azər ("Yaxşı adam", M.İbrahimov), Zaur ("Təhminə və Zaur", Anar), Mahmud ("Mahmud və Məryəm", Elçin), Polya Luici ("Dəmir sinif", A.Nikolai)...

Əlbəttə ki, bu obrazların hər biri haqqında ayrılıqda bəhs etmək olar, amma bu bir yazının imkanları xaricindədir. Bununla belə, aktyorun yaratdığı bir neçə rol üzərində dayanmaq istərdik.

Təvəkkül Əliyevin Xalq şairi Nəbi Xəzrinin "Sən yanmasan" əsərinin tamaşasında ifa etdiyi Eldar obrazı barədə Lənkəranın yaşlı teatrsevərləri bu gün də xoş xatirələrlə söz açırlar. Onlardan filologiya elmləri namizədi, Prezident təqaüdçüsü, qocaman pedaqoq Hacı Mirhaşım Talışlı hesab edir ki, Təvəkkül Əliyev Eldar obrazının daxili aləmini özünəməxsus cizgilərlə açaraq, onun təkcə müsbət xarakterini deyil, eyni zamanda mənfi xüsusiyyətlərini də göstərməyi bacarırdı. Aktyor Eldarın simasında daxildən çürük, zahirən təmiz olan, buqələmun kimi rəngdən-rəngə, dondan-dona girən tiplərin ümumiləşdirilmiş obrazını yaratmışdı.

Yazıçı Məmmədhüseyn Əliyevin "Ana fəryadı" əsərinin tamaşası da Lənkəran teatrının tarixində xüsusi yer tutur. İkinci Dünya müharibəsinin xalqımızın həyatından izsiz ötüşmədiyini və minlərlə ailəyə bədbəxtlik gətirdiyini əks etdirən səhnə əsərində "qara" kağızı gəlmiş İlyasın (Təvəkkül Əliyevin) on beş ildən sonra doğma yurda qəfil qayıdışı onun doğmalarının həyat tərzini tamam alt-üst edir. Çünki İlyasın arvadı onun anası Bəyimin təhriki ilə artıq xalası oğluna ərə gedib. Mövcud vəziyyətdən hamı çaş-baş qalıb. Bütün ailə İlyasın yanından da özünü günahkar saydığından onun gözündən qaçır. Belə məqamda İlyas üzünü görməyi doğma qızı Mirvari ilə söhbətləşib dərdləşir. Daha sonra o, tənhalığa qapılır, fonoqram ilə səhnədən onun daxili monoloqu ucalır. Aktyor sözün həqiqi mənasında, bu monoloqu yaşantılarla ifa edir. Onun sifətindəki cizgilər qəhrəmanının müharibədə necə böyük əzab-əziyyətlərdən keçdiyini, göz yaşları isə acı taleyi üçün daxilən vay-şivən qopardığını göstərir. Bu obraz ilə aktyor həm də sözsüz səhnələrin mahir ifaçısı olduğunu sübuta yetirir.

Təvəkkül Əliyev məhz belə ustalıqla "Aydın" tamaşasında böyük arzularla yaşayan, lakin əli heç bir yerə çatmayan Aydını, "Topal Teymur"da başı eyş-işrətə qarışmış, xalqın vəziyyəti ilə maraqlanmayan hökmdar İldırım Bəyazidi, "Şəhərin yay günləri"ndə (Anar) hər şeyi pulla həll etməyə çalışan Ağarəfini, "Fərhad və Şirin" dramında (S.Vurğun) öz sevgisi uğrunda Xosrovla baş-başa gələn, bunun üçün hətta dağları parçalayan Fərhadı və onlarla bu kimi müxtəlif xarakterli obrazları yaradaraq tamaşaçı rəğbətini qazanmışdı.

Teatrda son rolu isə Əli Vəlioğlunun "Əsrlərin harayı" tamaşasında Midiya hökmdarı Astiaq oldu. Aktyor qanı-canı bahasına bu obrazı yaratmış, istedadının bütün coşqunluğu ilə Astiaqın ziddiyyətlərlə dolu həyatını açıb göstərməyi bacara bilmişdi. Ölümündən cəmi üç gün əvvəl də bu obrazda səhnəyə çıxmışdı. Yanvarın 23-də isə o, bir daha 43 ildən bəri canından da çox sevdiyi səhnəyə qayıtdı. Amma bu dəfəki – sonuncu tamaşanın müəllifi də, ifaçısı da özü idi. Yenə də qədirbilən dostları, pərəstişkarları onun yanında idilər, onu alqışlayırdılar. Amma bu alqışlar göz yaşlarına qarışmışdı. Tamaşaçılar sevimli aktyorlarını son mənzilə yola salırdılar...



Təvəkkül Əliyev "Azərbaycanın Əməkdar artisti" fəxri ada layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif olunmuşdu. Xalq artisti adını almasa da, xalqın sevimli sənətkarı idi. Bu ada mənəvi haqqı da var idi. Bu barədə söz düşəndə deyirdi: "Postsovet dövrünün bəzi naqis xüsusiyyətləri öz diktəsini etməkdədir. O vaxt belə bir qayda vardı: ərlə arvad, yaxud da ata ilə övladları bir idarədə, bir müəssisədə işləyə bilməzdilər. Bizim işimiz də buna oxşayır. Söz düşəndə deyirlər ki, Böyükxanımla siz ər-arvadsınız, ikinizə də eyni bərabərlikdə yerimək olmaz. Əslində, belə şeylər gərək yaradıcı insanlara şamil edilməsin. Belə çıxır ki, Böyükxanım Xalq artisti olduğundan mən bu ada layiq görülə bilmərəm. Əslində, bunun mənim üçün elə bir əhəmiyyəti də yoxdur. Əməkdar artist olsam da, Xalq artisti səviyyəsində çalışıram...".

Teatrda hazırlanan tamaşaların əksəriyyətində baş qəhrəmanı oynamaq Təvəkkülün qismətinə düşmüşdü. Ürəyində bir arzusu da var idi: Kral Liri oynamaq. Amma ömür ona bu arzusunu gerçəkləşdirməyə imkan vermədi.

Son illər o həm də kino aktyoru kimi tanınmışdı. Bir sıra bədii filmlərdə, teleseriallarda maraqlı rollarda çəkilmişdi. Ümumilikdə isə Təvəkkül 15 ekran əsərində müxtəlif səpkili rolları ifa edib. Kinoda axırıncı işi "Əli və Nino" filmində olub. Burada məşhur Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin obrazını yaradıb.

Qeyd edək ki, Təvəkkül Əliyev özünü həm də rejissura sahəsində sınayıb. Əsasən də uşaqlar üçün tamaşalar hazırlayardı. İş elə gətirmişdi ki, Təvəkkül mənim də üç əsərimə quruluş vermişdi. Bu prosesdə onun necə tələbkar sənətçi olmasının bir daha şahidi oldum. "Mən hər şeydən əvvəl aktyoram, həm də peşəkar aktyoram, – deyirdi. – Amma ara-sıra teatrda tamaşa hazırlamaq isə mənim təcrübəmdən irəli gələn bir işdir. Rejissor vəzifəsinin məsuliyyəti böyükdür və mən belə bir yükün altına girməyə cürət etmərəm. Ötən onilliklər ərzində çox rejissorlarla işləmişəm, hərəsinin dəst-xəttindən müəyyən qədər bəhrələnmişəm".

Təvəkkül Əliyev həmçinin gənc aktyorların hamisi idi. Biliyini, təcrübəsini heç kimdən əsirgəmirdi. Gözünün qabağında onlarla gənc aktyorun püxtələşməsinə, sənətin sirlərini əxz etməsinə uşaq kimi sevinərdi.

65 illik ömrünün 43 ilini səhnə sənətinə həsr edən Təvəkkül Əliyev həm də gözəl ailə başçısı, sədaqətli ömür-gün yoldaşı, mehriban ata və baba idi. Nəvələrini özünün ən böyük var-dövləti hesab edirdi.

Heyf ki, ölüm onu aramızdan tez apardı. Lənkəran tamaşaçısı düz beş ildir ki, onsuz qalıb. Amma əziz xatirəsi unudulmur və illər, qərinələr keçsə belə, unudulmayacaq. Təvəkkül Əliyev bir-birindən gözəl, rəngarəng səhnə obrazları, filmlərdəki rolları ilə əbədi yaşayacaq.

Məzarın cənnətməkan olsun, əziz dost!

**Ağaddin Babayev**
**yazıçı-teatrşünas**

# Göytürk dövrünün ən qədim yazılı abidəsi

## Beynəlxalq Türk Akademiyası və Monqolustan arxeoloqlarının birgə ekspedisiyasında aşkar olunub

*əvvəli səh. 1-də*

Kəşfdə iştirak edən alimlər abidənin mətnindən "Tanrı", "Türk", "Kutluq", "Tümen" kimi bir sıra sözləri oxuya biliblər. Abidənin mətnindən əldə edilən məlumatlara əsasən, Nomqon kompleksinin Göytürk Xaqanlığını yenidən qurmuş Kültegin və Bilgə Xaqanın atası İlteriş Kutluq Xaqana ithaf edildiyi qənaətinə gəlinib.

Bundan əlavə, bu külliyə "Türk" adının ilk dəfə çəkildiyi Göytürk dövrünün ən qədim yazılı abidəsi kimi qəbul edilir.

Ümumilikdə Nomqon kompleksi bütün xüsusiyyətlərinə görə Bilgə Xaqan və Kültegin komplekslərinə bənzəyir. Nomqon yazısı olan abidənin yuxarı tərəfində əjdaha formasında iki canavar başı həkk olunub. Məlumdur ki, Taspar Xaqan, Bilgə, Kültegin və digər abidələrin zirvəsində xaqanlıq rəmzləri olan bu cür əjdaha şəklində, qurd başlı cizgi çəkilib. Nomqon abidəsinin də Orxon abidələri kimi Göytürk dövləti üçün əhəmiyyətli bir abidə olduğu anlaşılır.

Qeyd edək ki, BTA Nomqon qazıntılarının nəticələrinə dair elmi nəşr hazırlayacaq və türk dövlətlərinin paytaxtlarında təqdimatını keçirəcək. Monqolustanda Göytürk dövrü abidələrinin qazıntıları gələcəkdə də davam etdiriləcək.

Nomqon düzündə qazıntı işlərinə 2019-cu ildə başlanılıb. COVID-19 pandemiyası səbəbindən iki il fasilə verilən "Nomqon" ortaq qazıntıları 2022-ci ilin iyul ayında yenidən bərpa olunub.

"Nomqon-2022" ortaq qazıntılarında BTA-nın işçi qrupu (akademiyanın prezidenti Darxan Kıdıralı, arxeoloqlar Napil Bazılxan və Nurbolat Bogenbayev) ilə yanaşı, Monqolustan Elmlər Akademiyasından professor Altangerelyn Enkhtor, arxeoloqlar Tserenkhandyn Buyankhishig, Genchigyn Batbold və Narantuyagyin Tsengel, Munkhsaikhany Uuqanbayar da iştirak ediblər. Monqolustan Elmlər Akademiyası Arxeologiya İnstitutu Arxeoloji Araşdırmalar Mərkəzinin direktoru Dəmdinsurengin Tseveendorj (2022-ci ildə vəfat edib) də məsləhətçi arxeoloq olaraq layihədə yer alıb.

Bundan əvvəl də Beynəlxalq Türk Akademiyası Monqolustanda Şiveet-ulan abidəsində arxeoloji qazıntılar aparıb. 2016-cı ildə adıçəkilən vadiyə xüsusi ekspedisiya təşkil edib. Kutluq Xaqan dövründə tikilmiş mərasim kompleksində türk tayfalarının damğaları və müxtəlif tarixi əşyalar müəyyən edilib. Bu tədqiqatların davamı



olaraq 2019-cu ildə başlanan Nomqon arxeoloji qazıntıları nəticəsində İlteriş Xaqana həsr olunmuş kompleks aşkar olunub.

# Tarix və ənənənin rəngləri

XX əsrin əvvəllərindən etibarən Bakının mədəni mühiti təsviri sənətimizə bir çox istedadlı rəssam, heykəltəraş, dekorativ-tətbiqi sənət ustaları bəxş edib. Bu istedadları coşqun yaradıcılıq ruhu ilə sənətə sövq edən Azərbaycan paytaxtının qədim tarixi, mədəni irsi, bütün fəsillərdə özünəməxsus təbiəti, sahilində yerləşdiyi Xəzər, Abşeron bağları, İçərişəhər, onun məxsusi aurası və s. olub. Bu sənət ənənəsinə sadiq qalan rəssamlardan biri də Fuad Manafovdur.

Fuad Hənifə oğlu Manafov 30 sentyabr 1968-ci ildə Bakıda doğulub. 1984-1988-ci illərdə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində Faiq İbrahimov, Sabir Şıxlı kimi peşəkar rəssamlardan sənətin sirlərini öyrənib, eyni zamanda öz fərqli yaradıcılıq üslubunu tapıb. Kompozisiyaların çoxfiqurlu olması, dinamik tərzdə həlli, milli atributların zənginliyi, mülayim rəng koloriti onun dəst-xəttinə xas əlamətlərdir. Şaquli istiqamətdə pilləli təsvirləri miniatür üslubunda təqdim edən rəssam əsərlərinə şərti xarakterli ornamental-naxış elementləri də əlavə edir. Bu qəbildən olan təsvirlər arasında biz şəhərin memarlıq ansamblının şaquli yüksəlişini izləyirik.



Yaradıcılığı lirizmə və pozitiv simlərə köklənən rəssam tamaşaçını zamanın səyahətinə çıxarır, onu tarixlə üzləşdirir, köhnə ilə yeninin çalarlarını ortaya qoyaraq dövrlərin müqayisəsinə zəmin yaradır. Sənətkar fərqli rakurslardan, xüsusilə Bakının qədim qala divarları, İçərişəhərin dar küçələrini, bu küçələrdə gəzən sakinləri, eyvandan söhbətləşən qonşuları, məhəllələrdə futbol oyanayan uşaqları böyük ustalıqla realistik tərzdə təsvir edir. Real həyat hadisələrinə əsaslanan tematik tablolara nəzər yetirən tamaşaçı doğma Bakının retro aləminə qərq olur.



Xəzərin mənzərələri tablolarda qağayıların mavi dənizin suları üzərində süzməsi, günəşin qürubu, qayıqların ritmik düzülüşü qeyri-adi gözəlliyi ilə baxanları heyran edir. “Xəzərin sahilində” adlanan əsərində dəniz suyu və havanın rəngini də bənövşəyi çalarlara boyamış rəssam bu iki ayrı qütbü günəşin şüalarının suda əksi ilə bir-birindən ayırmağa müvəffəq olub.

Qədim şəhərin sakinlərinə gəlincə isə, onlar zəhmətkeş və şəndirlər. Uşaqların səs-küyünü eşitməmək, eyvanlardan söhbətləşən qadınların pıçıltısını duymamaq qeyri-mümkündür. Fuad Manafovun tabloları keçmişə qayıdıb həmin yerlərdə həmin anları yaşamaq istəyi yaradır. Bu qəbildən olan əsərlərdə köhnə Bakı və onun bədii ənənələri, müxtəlif yaşlı insanların obrazları ümumiləşdirilmiş və dəqiqliklə təsvir olunub.



70-80-ci illərə vizual səyahətdə həyətlərdə, parklarda gəzməyə can atan nadinc uşaqların, xəyallara dalan yaşlıların, keçmişin qızıl dumanında ötən günlərin Bakısı qarşımızda canlanır. Xəyallarımızın və böyük arzuların şəhəri... Uşaqlığın xoşbəxt günləri, yay tətilləri, bayramlar... Bütün bunlar Fuad Manafovun şahidi olduğu zamanın qızılı layları arasından süzülərək kətan üzərinə yansıyırr. “Sakit üfüqlərdə”, “Yatmış şəhər”, “Gilavar”, “Xəzri”, “Bakı vaxtilə”, “Unudulmuşlar”, “Səmt küləyi”, “Şərq nağılı”, “Aylı gecə”, “Xatirələr üzərindən uçuş”, “Küləklər şəhəri. Melanxoliya”, “Ovdan”, “Bakı incisi”, “Günəşə doğru” kimi əsərlərdəki detallar zərgər dəqiqliyi ilə təsvir olunmuş şəhərin ruhunun estetik vəsfidir. Bu əsərlərdə rəssam tamaşaçının nəzərini hansı nöqtələrə tuşlayacağını bilir.

İşıq-kölgə effektləri, rəng yaxmalarının nahamar vuruluşu bu əsərlərin fakturasının realistik tərzdə həll olunmasına gətirib çıxarır. Əksər tablolarında o, şəhərin mənzərəsini əsasən “quş baxışı” ilə təsvir edərək onun gözəlliyini, qədimliyini, dənizini, sakinlərini bir əsərdə tamaşaçının önünə çıxarmağa nail olur.

Fuad Manafov Abşeron bağlarını da sevə-sevə təsvir edir. Dənizin yaxınlığında salınan bu bağların özünəməxsus təbiəti var. Bakıətrafı kəndlərdə hökm sürən bu ab-hava sadə sakinləri, özünəməxsus ənənələri ilə hər kəsi bura istirahətə dəvət edirdi. Paytaxt sakinləri yay fəslində xüsusən bağlara üz tutur, bol meyvəli bağlarda şipşirin əncirləri, üzümləri nübar edir, nəhəng tut ağacının altında özlərinə köşk qurub, yayın cırhacır istisində Xəzər dənizinin sahilinə üz tuturdular.

Fuad Manafovun tablolarında da bu səhnələr əks olunur. Demək olar ki, o zamanlar hər bağın olmazsa olmazı – alaçıqlar, çarhovuzlar, su quyuları, yayda yorğan-döşək salan, xalça-palaz yuyan gəlinlər bu əsərlərdə əsas fiqurlardır. Əfsanəvi şanapipik quşunu da bu bağların rəmzi hesab edə bilərik. Rəssamın “Bakı bağları”, “Yenə o bağ olaydı...”, “Qonşu məhəllə ilə oyun”, “Sonuncu pillə”, “Sübh şəfəqləri”, “Bakı kəndləri. Maştağa”, “Bakı bağları. Əncir dərənlər” əsərləri qədim torpağın, Abşeron motivlərinin real təsvirləri ilə səciyyəvidir.

Adət-ənənələrə bağlılıq, unudulmaqda olan bədii dəyərləri yaşatmaq istəyi Fuad Manafovu bu mövzuda silsilə əsərlər yaratmağa sövq edir. Bu qəbildən olan əsərlərin mövzusu xalqın şifahi poetik yaradıcılığını özündə birləşdirir.



Azərbaycanın qədim toy ənənələri bu günümüzdən çox fərqli idi. Dəvə karvanları ilə gəlin köçürmə adətini əks etdirən kompozisiyaların süjet xətti özündə milli adət-ənənələri ehtiva edir. Gəlinlərin kəcavədə aparılması, milli geyim nümunələri, çalğı alətləri, muğam ustalarının ifa edərkən təsviri emosional bədii ifadəsi ilə seçilir. Xalqın tarixinə, məişətinə biganə qalmayan rəssam “Karvan simfoniyası”, “Sarı gəlin”, “Köhnə Bakıda nişan mərasimi”, “Ən yaxın dostumun toyu”, “Nağıllar şəhəri”, “Xatirələr küçəsi”, “Sübh şəfəqləri”, “Qədim çövkən oyunu” tablolarında xalqın folklor ənənələrini məharətlə kətana köçürüb. O, həmçinin Bakı kəndlərində keçirilən toy-büsat adətlərini də təsvir edib. Bütün bu sadalanan detalları “Elimizə gəlin gəlir” əsəri ilə ümumiləşdirsək, deyə bilərik ki, toy adət-ənənəsi fonunda, qədim milli bayramımız olan Novruzu, milli geyimləri, çalğı alətlərini, qədimi lampaları, saxsı qabları da görə bilərik.



Xalqın tarixi, müxtəlif milli atributlar insanın mənəvi aləminə daxil olub onun milli şüurunun yaranmasına təsir edir. Fuad Manafovun elə bir əsəri yoxdur ki, orada milli ruh hiss olunmasın. Bu, rəssamın öz qayəsinə hörməti və sevgisi ilə bağlıdır. “Bakı narları”, “Şərq”, “Xınayaxdı”, “Oxu tar... Səni kim unudar?!”, “Yumurta döyüşdürənlər”, “Yeddi gözəl”, “Gün olar, bayram olar”, “Qavalla rəqs” kimi əsərlərdə Azərbaycanın Novruz bayramına xas adət-ənənələri, bayramın atributları, muğam ifa edən xanəndələr, milli geyimdə qızlar, çalğı alətləri ustalıqla kətana köçürülüb.

Fuad Manafovun ən çox məişət janrına müraciət etdiyini əminliklə deyə bilərik. Xalqın gündəlik həyat tərzi, keçmişi, bu günü və gələcəyi rəssamı daima maraqlandırır. O, tablolarında bu süjetləri təsvir etməklə bizə müqayisələr etməyə, hərtərəfli müşahidələr aparmağa imkan yaradır. Buna ən bəsit nümunə kimi qonşuluq münasibətini göstərə bilərik. Qonşuların vaxtilə nə qədər mehriban olduğunu “Mehriban qonşular”, “Bakı vaxtilə”, “Kişilərin söhbəti”, “Yenə o bağ olaydı...” və s. əsərlərində görmək mümkündür.

Azərbaycan xalqının məişət tarixində, həyat tərzində dəvələrin xüsusi yeri olub. Bu zəhmətkeş canlılardan uzaq məsafələri qət etmək, malların daşınması zamanı istifadə olunurdu, bir zamanlar dəvələrin köməyi ilə torpaqlar şumlanıb. Müasir Azərbaycan ərazisində ağ dəvəyə pərəstiş İslamdan əvvəlki dövrə - Zərdüştlük dövrünə gedib çıxır. “Əməl karvanı”, “Şərq”, “Saleh peyğəmbərin ağ dəvəsi”, “Karvan simfoniyası”, “Sahibsiz karvan”, “Bakıdan-Qarabağa”, “Ömür karvanı” kimi dəvə karvanlarının əks olunduğu əsərlərdə gah şaquli, gah da üfüqi xətt üzrə stilizə edilmiş miniatür ənənələrini izləyirik.

Batal janrına da müraciət edən Fuad Manafov “Hücum”, “Son döyüş”, “Cəməl döyüşü”, “Türklər”, “Çaldıran döyüşü” əsərlərində ayrı-ayrı dövrlərdə baş vermiş tarixi döyüş səhnələrini canlandırıb. Çoxfiqurlu və kəskin dinamik kompozisiyalı bu əsərlərdə əsasən qəhvəyi çalarlar üstünlük təşkil edir. Şübhəsiz ki, tarixi mövzuya, batal janrına müraciət rəssamın bu mürəkkəb janrlarda işləmək bacarığı ilə yanaşı, onun dünyagörüşünü, tarixi biliklərini də ortaya qoyur.

Səfəvi və Osmanlı orduları arasında 1514-cü ildə baş verən Çaldıran döyüşünə həsr olunmuş əsər qədim miniatürləri xatırladır. Amma əsərdə miniatür sənətinə xas şərtilik mövcud deyil, tablo kompozisiya dinamikası və təsvir obyektlərinin həcmli həlli ilə fərqlənir.

Vaxtilə hər birimizin köksündə dərin yara, həsrət izi qoyan Qarabağ mövzusu Fuad Manafovun da yaradıcılığında əksini tapmaya bilməzdi. Onu da qeyd edək ki, Fuad Manafov Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Vətənə, onun tarixinə bağlı, adət-ənənələrinə sadiq, milli ruhla yoğurulmuş əsərlərin müəllifi uğrunda vuruşduğu torpağın gözəlliklərini də sevə-sevə tablolarında vəsf edib. “Qarabağnamə”, “Şuşa –Qarabağ incisi”, “Ağdam – Qarabağ incisi”, “Qubadlıya aparan yol”, “Ağdama bahar gəlir”, “Şuşaya bahar gəlir”, “Xudafərin” və s. əsərləri rəssamın Qarabağ etüdləri silsiləsinə daxildir.

Milli adət-ənənələr, tarixi hadisələr, milli geyimlər, Bakının köhnə və müasir mənzərələri, “Qarabağ inciləri” silsiləsi, dini mövzular Fuad Manafovun çoxşaxəli yaradıcılığının mövzusu və fəlsəfəsidir. Rəssamın əsərləri Azərbaycan tarixi və ənənələrini vizual tərzdə tablolarda yaşadan xəzinədir desək, yanılmarıq.

**Dürdanə Qurbanova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Dağlara sığınan Lüvəsər

Lənkəranda yaşayan tanınmış, jurnalist publisist Hacı Etibar Əhədov 60-a qədər kitabın müəllifidir. Bu günlərdə onun “Dağlara sığınan Lüvəsər” adlı kitabı işıq üzü görüb.

Yeni nəşr cənub mirvarisi Lənkəranın yaşayış məntəqəsi olan Lüvəsər kəndindən bəhs edir. Kitabda kəndin coğrafi mövqeyi, tarixi, Lüvəsər toponimi və kəndin mikrotoponimləri, sosial-iqtisadi, mədəni həyatı, tanınmış insanları haqqında söz açılır. Məlumat üçün bildirək ki, ərazisi 187 hektar, əhalisi 1400 nəfər olan kənd rayon mərkəzindən 7 km cənubda, Talış dağlarının ətəyində yerləşir.

Kitab Moskvada yaşayan lüvəsərli sahibkar-xeyriyyəçi Fəxrəddin Məmmədovun maddi dəstəyi hesabına çap olunub. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabın rəyçisi İ.Cəfərov, redaktoru filologiya üzrə fəlsəfə doktoru A.Əliyevdir.

**Zəfər Orucoğlu**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

## Xatirə təqvimi — 27–31 avqust

### Azərbaycan

**27 avqust 1918** – Əməkdar rəssam Ənvər Hacıağa oğlu Almaszadə (1918 – 6.3.2007) Bakıda doğulub. Akademik Opera və Balet Teatrında rəssam (1937-1992) işləyib.

**27 avqust 1921** – Yazıçı-dramaturq Seyfəddin Dağlı (Seyfəddin Əliağa oğlu Abbasov; 1921 – 18.1.1983) Xızıda doğulub. “Adı sənin, dadı mənim”, “Aydınlığa doğru” və s. pyeslərin, “Bahar oğlu”, “Məşəl” kitablarının müəllifidir. “Kirpi” jurnalının baş redaktoru olub.

**27 avqust 1928** – Əməkdar rəssam Nadir Əlimuxtar oğlu Zeynalov (1928 – 16.3.1987) anadan olub.

**27 avqust 1929** – Əməkdar mədəniyyət işçisi, aktyor, rejissor Məmmədkamal Allahqulu oğlu Kazımov (1929 – 13.12.2005) Bakıda anadan olub. Akademik Dram, Sumqayıt, Ağdam teatrlarında çalışıb, filmlərdə çəkilib.

**27 avqust 1942** – Ərəbşünas alim, akademik Vasim Məmmədəli oğlu Məmmədəliyev (1942 – 13.10.2019) Bakıda anadan olub. “Qurani Kərim”in Azərbaycan dilinə tərcüməçilərindən biridir. “Ərəb dilçiliyi”, “Quran və elm” və s. monoqrafiyaların, dərsliklərin müəllifidir.

**27 avqust 1998** – Görkəmli kinorejissor, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadə (7.2.1919 – 1998) vəfat edib. Filmləri: “Görüş”, “Uzaq sahillərdə”, “Yeddi oğul istərəm”, “Dədə Qorqud”, “O dünyadan salam” və s.

**28 avqust 1935** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (1935 – 9.10.2009) Biləsuvar rayonunun Ağalıkənd kəndində doğulub. “İtkin gəlin”, “Əfsanəsiz illər”, “Ayrılığın sonu yoxmuş”, “Təyyarə kölgəsi”, “Vəfalım mənim” və s. əsərləri geniş oxucu rəğbəti qazanıb.

**28 avqust 1968** – Aşıq Xındı Məmməd (Məmməd Gülabı oğlu Qəniyev; 1896, Borçalı – 1968) vəfat edib.

**28 avqust 1984** – Xalq artisti, tanınmış müğənni Rübabə Xəlil qızı Muradova (22.3.1933 – 1984) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

**29 avqust 1890** – Şair, qəzəlxan Məhəmmədəli Şəfai (1890-1967) Bakının Maştağa kəndində anadan olub.

**29 avqust 1929** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (1929 – 17.12.1987) Şamaxıda doğulub. “Bakı ritmləri”, “Kəpəz” və b. tabloların müəllifidir. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin rəhbəri (1981-1987) olub.

**29 avqust 1960** – Telejurnalist, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Fuad oğlu Mustafayev (1960 – 15.06.1992) anadan olub.

**29 avqust 1965** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (30.10.1880 – 1965) vəfat edib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

**30 avqust 1946** – Xalq artisti, tanınmış radio diktoru Qarasim Əbdülhəsən oğlu Tağızadə (1946-2018) Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. Azərbaycan Radiosunun diktorlar şöbəsinə rəhbərlik edib.

**30 avqust 2000** – Tanınmış şair, publisist Şahmar Əkbər oğlu Əkbərzadə (28.12.1941 – 2000) vəfat edib. “Mədəniyyət” qəzetinin ilk baş redaktoru (1991-2000) olub.

**31 avqust 1927** – Şair, dramaturq, Əməkdar incəsənət xadimi İsgəndər Coşqun (İsgəndər Məmməd oğlu Hümmətov; 1927 – 10.12.1996) Göyçayda anadan olub. “Gəmidə söhbət”, “Qığılcımlar”, “Nəğmə dolu ürək” və s. kitabların müəllifidir.

**31 avqust 1942** – Şair, nasir, tərcüməçi, maarifçi Rəşid bəy İsmayıl oğlu Əfəndiyev (1863-1942) vəfat edib. Şəkidə doğulub. “Qan ocağı, “Pul dəlisi”, “Diş ağrısı” və s. pyeslərin müəllifidir. Dərsliklər yazıb.

**31 avqust 1957** – Əməkdar artist Kübra Məmmədağa qızı Dadaşova (1957 – 12.2.2017) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrında çalışıb, filmlərdə (“Yuxu”, “Cavid ömrü” və s.) çəkilib.

**31 avqust 1967** – Cənubi Azərbaycan yazıçısı, ictimai-siyasi xadim Səməd Behrəngi (24.6.1939 – 1967) vəfat edib. Azərbaycan nağıllarını fars dilinə tərcümə edərək nəşr etdirib.

**31 avqust 2018** – Şəki şəhərində Xalq şairi, dramaturq, ədəbiyyatşünas, ictimai xadim Bəxtiyar Vahabzadənin Ev-Muzeyinin açılış mərasimi keçirilib.

**31 avqust 2021** – Azərbaycanın Əməkdar artisti, Rusiyanın Xalq artisti Tamilla Mirsüca qızı Ağamirova (21.8.1928 – 2021) vəfat edib.

**31 avqust 2021** – Şair, ssenarist Əhməd Oğuz (Əhməd Musa oğlu Kərimov; 13.11.1961 – 2021) vəfat edib.

### Dünya

**27 avqust 1770** – Alman filosofu Georq Vilhelm Fridrix Hegel (Georg Wilhelm Friedrich Hegel; 1770 – 14.11.1831) anadan olub. Əsərləri: “Ruhun fenomenologiyası”, “Məntiq elmi”, “Tarixin fəlsəfəsi” və s.

**27 avqust 1856** – Klassik Ukrayna ədəbiyyatının banilərindən biri, yazıçı, şair İvan Franko (1856-1916) anadan olub. Əsərləri: “Kəsişən cığırlar” (roman), “Oğurlanmış xoşbəxtlik” (şeirlər toplusu).

**27 avqust 1871** – Amerika yazıçısı Teodor Drayzer (Theodore Herman Albert Dreiser; 1871 – 28.12.1945) anadan olub. Əsərləri: “Kerri bacı”, “Cenni Herhardt”, “Arzular trilogiyası”, “Amerika faciəsi”, “Dahi” və s.

**27 avqust 1896** – Rus aktrisası, SSRİ Xalq artisti Faina Ranevskaya (Feldman; 1896-1984) anadan olub. Bir müddət (1925-1927, 1929-1931) Bakı İşçi Teatrında çalışıb.

**26 avqust 1914** – Argentina yazıçısı və şairi Xulio Kortasar (Julio Florencio Cortazar; 1914-1984) anadan olub. Əsərləri: “Uduş”, “Sonuncu raund”, “Manuelin kitabı” və s.

**28 avqust 1749** – Alman şairi, yazıçı-dramaturq Yohann Volfqanq Höte (Johann Wolfgang von Goethe; 1749 – 22.3.1832) anadan olub. Əsərləri: “Faust” mənzum tragediyası, “Vilhelm Meysterin təhsil illəri”, “Gənc Verterin iztirabları” romanları, “İfigeniya”, “Torkvato Tasso” dramları və s.

**28 avqust 1867** – İtaliya bəstəkarı Umberto Cordano (Umberto Menotti Maria Giordano; 1867-1948) anadan olub. Operaları: “Andre Şenye”, “Fedora”, “Sibir”, “Madam Sen-Jen” və s.

**28 avqust 1925** – Yəhudi əsilli Rusiya yazıçısı Arkadi Natanoviç Struqaski (1925-1991) anadan olub. Qardaşı Boris Struqaski (1933-2012) ilə birgə yazdıqları fantastik əsərlərlə tanınıb: “Tünd-qırmızı buludlar ölkəsi”, “Günorta, XXII əsr” və s.

**29 avqust 1862** – Belçika yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1911) laureatı Moris Meterlink (Maurice Polydore Marie Bernard Maeterlinck; 1862-1949) anadan olub. Əsərləri: “Göy quş”, “Beatris bacı” (pyeslər), “Güllərin idrakı”, “Arıların həyatı” (fəlsəfi pritçalar) və s.

**29 avqust 1903** – Məşhur rus aktyoru Andrey Fayt (1903-1976) anadan olub. “Azərbaycanfilm”də lentə alınan “Uzaq sahillərdə” (Mazelli), “Bir qalanın sirri” (Göygöz kosa) filmlərində çəkilib.

**29 avqust 1915** – İsveç aktrisası, üç dəfə “Oskar” laureatı İngrid Berqman (Ingrid Bergman; 1915 – 29.8.1982) anadan olub. Filmləri: “Anastasiya”, “Şərq ekspresində qətl”, “Qaz işığı” və s.

**29 avqust 1920** – Amerika caz musiqiçisi Çarli Parker (Charlie “Bird” Parker; 1920-1955) anadan olub.

**29 avqust 1958** – Dünya şöhrətli amerikalı müğənni Maykl Cekson (Michael Joseph Jackson; 1958–2009) anadan olub. 13 dəfə “Qremmi” mükafatına layiq görülüb.

**30 avqust 1748** – Fransız rəssamı Jak Lui David (Jacques-Louis David; 1748-1825) anadan olub. Məşhur rəsmləri: “Maratın ölümü”, “Horasilərin andı”.

**30 avqust 1860** – Rus rəssamı İsaak İliç Levitan (1860-1900) anadan olub. Peyzaj ustası kimi tanınıb. Əsərləri: “Ağcaqayın meşəsi”, “Göl” və s.

**31 avqust 1811** – Fransız yazıçısı Teofil Qotye (Theophile Gautier; 1811-1872) anadan olub. Romanları: “Gənc Fransa”, “Madmazel Mopen” və s.

**31 avqust 1897** – Amerika aktyoru, iki dəfə “Oskar” laureatı Frederik Març (Frederick Ernest McIntyre Bickel; 1897-1975) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

№62 (1935)
26 avqust 2022
www.medeniyyet.az

# Böyük Qələbə dastanının son hekayəsi səhnələşdirilib

## "Zəfər əldə etmədən dönmə, Mustafam"

Oğlu Mustafa Kamal Paşanın (Mustafa Kamal Atatürk) qələbə ilə qayıtmasını arzulayan Zübeydə xanımın son sözləri ("Zəfər əldə etmədən dönmə, Mustafam") türk xalqının Qurtuluş savaşında böyük Zəfərin 100-cü ildönümündə səhnəyə gətirilib.

Bu barədə Türkiyə Mədəniyyət və Turizm Nazirliyindən məlumat verilib. Nazirliyin İncəsənət üzrə Baş İdarəsi 100 nəfərdən ibarət kollektivin 30 Avqust – Zəfər bayramı münasibətilə hazırladığı səhnə əsərini 4 vilayətdə tamaşaçılara təqdim edəcək.

Afyonkarahisar, Kütahya, Uşak və İzmirdə səhnəyə qoyulacaq "Zəfər yolu – 100-cü il. Son söz" tamaşasında düşmənə ilk gülləni ataraq qurtuluş fitilini alovlandıran Həsən Tahsindən başlayaraq ay-ulduzlu bayrağı səmaya qaldıran qəhrəmanların 9 sentyabrda İzmirdə düşməni dənizə tökməsi ilə yekunlaşan möhtəşəm qələbələrin hekayəsi anladılacaq.

İzmir Dövlət Türk Dünyası Rəqs və Musiqi Ansamblının təqdim edəcəyi tamaşadan sonra sənətçilər Fatih Ərkoç və Əhməd Baran İzmir Dövlət Simfonik Orkestrinin müşayiətilə düzənlənən 30 Avqust özəl konsertində eyni səhnəni paylaşacaqlar.




Baş Komandanlıq meydan döyüşünün ("Böyük hücum") 100-cü ildönümündə Türk Tarix Qurumunun əhatəli arxiv araşdırması ilə hazırladığı, həm arxa cəbhədə, həm də ön cəbhədə gedən mübarizəyə işıq salan "Millətin əzmi" sənədli filmi də tamaşaçılara təqdim ediləcək.

Türk ordusunun həlledici döyüşə hazırlıqları, komandanlıq heyətinin strateji addımları və xalqın mübarizəyə verdiyi töhfəni fotoşəkillər və videogörüntülərlə diqqətə çatdıran sənədli filmdə hücum boyunca cəbhədə yaşananlar üçölçülü xəritələr vasitəsilə izah edilir.

Qazi Mustafa Kamal Atatürkün liderliyi ilə qazanılan tarixi qalibiyyətdən bəhs edən tamaşa isə ilk olaraq 25 avqustda Afyonkarahisarın Şuhut rayonunda nümayiş olunub. "Zəfər yolu – 100-cü il. Son söz" 27 avqustda Küthayada, 28 avqustda Uşakda və 30 avqustda İzmirdə göstəriləcək.

**Mehparə Sultanova**
**Ankara**

# Polşa orkestri azərbaycanlı dirijorun rəhbərliyi altında çıxış edib

Polşanın Lutoslavski adına Beynəlxalq Gənclər Simfonik Orkestri Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin rəhbərliyi altında Berlinin ən mötəbər salonlarından biri olan "Konzerthaus"da və Polşanın Şeçin şəhərinin M.Karloviç adına Dövlət Filarmoniyasında çıxış edib.




Lutoslavski adına orkestr artıq 10 ildir xüsusi sınaq müsabiqələrinin nəticələri əsasında dünyanın müxtəlif ölkələrindən istedadlı gəncləri seçib dəvət edir. Bu il Polşa, İspaniya, İtaliya və digər ölkələrdən seçilmiş gənc musiqiçilər Berlin Filarmonik, Berlin Konzerthaus və Polşa milli orkestrinin musiqiçiləri tərəfindən xüsusi olaraq hazırlıq prosesi keçiblər. Son mərhələdə azərbaycanlı dirijor Əyyub Quliyevlə birbər çox mürəkkəb musiqi proqramı tərtib edilib. Proqramda Bela Bartokun simfonik orkestr üçün yazdığı "Konsert", M.Karloviçin "Molenadan Bianka" simfonik poeması və V.Lutoslavskinin "Violonçel və orkestr üçün konsert"i (solist – beynəlxalq müsabiqələr laureatı Marcin Zdunik) yer alıb.

Hər il Berlində avqust ayında keçirilən və dünyanın tanınmış gənclər simfonik orkestrlərinin iştirak etdiyi "Young Euro Classics" festivalına Lutoslavski Beynəlxalq Gənclər Orkestri ilk dəfə qatılıb. Polşa Orkestri ilə bərabər festivalın açılışında da Amerika Milli Gənclər Simfonik Orkestri (dirijor – Daniel Harding), Almaniya Gənclər Orkestri (dirijor – Mark Abrext), eləcə də Ukrayna (dirijor – Oksana Lyniv), Türkiyə (dirijor – Cem Mansur), Niderland, Venesuela və Avstriyanın gənclərdən ibarət simfonik orkestrləri çıxış ediblər. Konsertlərdə Rene Kapuson (skripka/Fransa) və Alisa Vaylerştayn (violonçel/ABŞ) kimi solistlər də iştirak ediblər.

Əyyub Quliyevin rəhbərliyi ilə keçən konsertdə Polşa Beynəlxalq Gənclər Simfonik Orkestrinin ifası alman mətbuatında festivalın ən yaddaqalan və uğurlu konsertlərindən biri kimi qeyd olunub. Konsertin sonunda dinləyicilərin alqışlarını və istəyini nəzərə alaraq musiqiçilər əlavə olaraq Yohannes Brahmsın əsərlərini ifa ediblər.

Qeyd etmək lazımdır ki, Berlində keçirilən konsert Alman Dövlət Radiosu (Deutch Rundfuk) tərəfindən tam olaraq lentə alınıb. Konsertdən sonra Polşanın Almaniyadakı səfiri tərəfindən azərbaycanlı dirijor və Polşa orkestrinin şərəfinə rəsmi qəbul təşkil olunub.

Konsert proqramı Polşanın Şeçin şəhərində – M.Karloviç adına Dövlət Filarmoniyasının "Qızıl zal"ında da sənətsevərlər tərəfindən alqışlarla qarşılanıb. Sonda filarmoniyanın direktoru Dorota Serva və dirijor Əyyub Quliyev orkestr üzvlərinə xüsusi sertifikatlar təqdim ediblər.




# "Sevil" sənədli filmlər festivalına yekun vurulub

Xəbər verdiyimiz kimi, Azərbaycan Kinematoqrafçılar İttifaqı, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Azərbaycanda Fransız İnstitutu və digər qurumların dəstəyi ilə 13-20 avqust tarixində "Sevil" Beynəlxalq Qadın Sənədli Film Festivalı keçirilib.

Yerli və əcnəbi kino mütəxəssislərinin iştirak etdiyi festivalda ümumilikdə 36 film nümayiş olunub.

Bağlanış mərasimində üç nominasiyada qalib olan filmlər elan edilib. "Tammetrajlı sənədli film nominasiyası" üzrə Mina Laamonun (Finlandiya) "Kədər tərbiyəçisi", "Beynəlxalq qısametrajlı sənədli film nominasiyası" üzrə Mariana X.Riveranın (Meksika) "Çöl çiçəkləri", "Yerli qısametrajlı sənədli film nominasiyası" üzrə isə Aynur Kazımovanın (Azərbaycan) "Unudulmuş arzular" filmi festivalın qalibi olub.

Rejissor Aynur Kazımova "Sevilfest"in 2022-ci il proqramı çərçivəsində Almaniyanın "goEast" film festivalı tərəfindən təşkil edilən "East-West Talent Lab"da iştirak hüququ qazanıb.

Festivalda münsiflərin xüsusi mükafatı da təqdim olunub. Müvafiq kateqoriyalar üzrə Ceyms Kiklayterin (ABŞ) "Kimliyin səsi", Sargol Eslamianın (İran) "Sükut içində piçıltı" ekran əsərləri münsiflər heyətinin seçimi olub.

# Bolluq dövrü bitir – qənaət zamanıdır

## Avropa ölkələri Ukraynadakı müharibənin daha ağır iqtisadi fəsadlarına hazırlaşır

Böyük dəyişikliklər zamanıdır. "Bolluq" və "qayğısız günlər"in sonudur. Fransa Prezidenti Emmanuel Makron bu sözləri Nazirlər Şurasının iclasında söyləyib.

Dünyanı bürüyən ciddi böhranların davam etdiyini vurğulayan E.Makron hökuməti baş verən dəyişikliklər qarşısında birlik nümayiş etdirməyə çağırıb.

Altı ay əvvəl Ukraynada başlayan müharibənin və iqlim böhranının təsirlərini xatırladan Fransa Prezidenti maliyyə vəsaiti, texnologiya məhsulları, xammal, eləcə də içməli su baxımından "bolluğun sonu" olduğunu vurğulayıb. Bildirib ki, əhali belə vəziyyətə böyük təşvişlə reaksiya verə bilər, amma hökumət üzvləri vəziyyəti olduğu kimi, aydın şəkildə xalqa deməlidir.

Rusiyanın Ukraynada hərbi əməliyyatının başlanması ilə indiyədək görünməyən həddə yüksələn enerji qiymətlərindən ən çox zərər görən ölkələrdən biri də Almaniyadır. Enerji tələbatının böyük hissəsini Rusiyadan aldığı qaz hesabına təmin edən ölkədə bu ilin əvvəlindən elektrik enerjisinin qiyməti 2 dəfədən çox artaraq 1 kvt/saat üçün 50 sentə çatıb.

Almaniya hökuməti payız və qış mövsümləri ilə bağlı ciddi qənaət rejiminə keçməyə hazırlaşır. Bildirilir ki, bu qış ictimai binalarda mərkəzləşdirilmiş istilik sistemi üzrə temperatur 19 dərəcə olacaq. İqtisadiyyat naziri Robert Habek əhalini və özəl sektoru da bundan nümunə götürməyə çağırıb. Bundan əlavə, 1 sentyabrdan etibarən saat 22:00-dan 6:00-dək bütün reklam işıqları söndürüləcək. Hökumət bu yolla qışda qaz sərfiyyatına ən azı 2% qənaət etmək istəyir.



Bu arada Avropa son yüzilliyin ən quraqlıq dövrünü yaşayır. Avropa Komissiyasının Birgə Araşdırmalar Mərkəzi ekspertlərinin hazırladığı hesabatda iyul ayında qitədə quraqlığın təhlükəli səviyyəyə çatdığı bildirilib. Hesabatda Avropa İttifaqı (Aİ) torpaqlarının 47 faizində quraqlığın təhlükəli səviyyəyə çatdığı, Aİ-nin 17 faizində isə həyəcanverici səviyyədə olduğu vurğulanıb.

Quraqlıq səbəbindən qitədə qarğıdalı, soya və günəbaxan istehsalının son 5 ilin orta göstəricisindən 15 faiz az olacağı gözlənilir. Yağıntıların olmaması Avropa çaylarında suyun səviyyəsini aşağı salıb, su elektrik stansiyalarında enerji istehsalı azalıb.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 951 il əvvəl...



**26 avqust 1071-ci ildə** Sultan Alp Arslanın başçılıq etdiyi Səlcuq ordusu ilə Bizans imperatoru Romen Diogenin qoşunları arasında Malazgirt döyüşü (Türkiyənin indiki Muş vilayətinin ərazisi) baş verib. Alp Arslanın 50 minlik süvari ordusu bizanslıların 200 minlik qoşunu üzərində qələbə çalıb. Bu qələbədən sonra türklərin Səlcuqlar dövləti Qafqaz-Yaxın Şərq regionunun hegemon gücə çevrilib.

### 612 il əvvəl...

**30 avqust 1410-cu ildə** Təbriz yaxınlığında baş verən ikinci Şənbi-Qazan döyüşündə Qaraqoyunlu hökmdarı Qara Yusifin qoşunları Cəlairilər dövlətinin başçısı Sultan Əhmədin ordusunu məğlub edib. Cəlairilər dövlətinin (Cənubi Azərbaycan 1359-1410-cu illərdə bu dövlətin tərkibində olub) mövcudluğuna son qoyulub. Bölgədə geosiyasi arenaya yeni Azərbaycan-türk dövləti – Qaraqoyunlu imperatorluğu (1410-1468) çıxıb.

### 496 il əvvəl...

**29 avqust 1526-cı ildə** Sultan II Süleymanın başçılıq etdiyi Osmanlı qoşunları Kral II Lüdoviqin rəhbərlik etdiyi macar ordusunu döyüşdə məğlub edib. Bu döyüşdən sonra Macarıstan krallığının üçdə ikisi Osmanlının, qalanı isə Avstriyanın nəzarətinə keçdi.

### 301 il əvvəl...

**30 avqust 1721-ci ildə** Rusiya ilə İsveç arasında 20 ilə yaxın (fasilələrlə) sürmüş Şimal müharibəsinin yekunları barədə Niştadt sülhü imzalanıb. I Pyotrun apardığı müharibə nəticəsində Rusiya Baltik dənizinə (oradan da dünya okeanına) çıxış əldə edib, indiki Estoniya və Litva ərazilərini, həmçinin Finlandiyanın bir hissəsini özünə birləşdirib.

### 104 il əvvəl...

**28 avqust 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası xalq maarifinin, orta məktəblərin milliləşdirilməsi, ölkənin bütün məktəblərində türk (Azərbaycan) dilinin icbari qaydada tədrisi barədə qərar qəbul edib.

### 100 il əvvəl...



**30 avqust 1922-ci ildə** Mustafa Kamal Paşanın komandanlığı altında türk ordusu işğalçı yunan qoşunları ilə Dumlupınar döyüşündə (Kütahya vilayəti) tarixi qələbə qazanıb. Bu qalibiyyət türk xalqının Qurtuluş savaşında həlledici rol oynayıb. 26 avqustda Afyonkarahisarda başlayan "Büyük Taarruz" ("Böyük Hücum") 9 sentyabrda İzmirin azad edilməsi ilə başa çatıb. 30 avqust Türkiyədə Zəfər bayramı (Silahlı Qüvvələr Günü) kimi qeyd olunur.

### 92 il əvvəl...

**30 avqust 1930-cu ildə** Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qərarı ilə respublika ərazisi yeni ərazi-inzibati vahidlərinə – rayonlara bölünüb. Azərbaycan SSR ərazisində 63 rayon yaradılıb. Bundan öncə (1920-1930-cu illərdə) respublikada ərazi-inzibati bölgüsü olaraq 10 dairə və onların tərkibində qəzalar mövcud idi.

### 31 il əvvəl...

**27 avqust 1991-ci ildə** Bakı Şəhəri Xalq Deputatları Sovetinin qərarı ilə şəhərin mərkəzi (Lenin adına) meydanında Vladimir Leninin heykəli sökülüb və meydana Azadlıq adı verilib.

**30 avqust 1991-ci ildə** Ali Sovetin növbədənkənar "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olunub. Bəyannamədə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanıb. Parlament həmçinin Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının hazırlanması ilə bağlı qərar qəbul edib.

### 30 il əvvəl...

**28 avqust 1992-ci ildə** Ballıqaya qətliamı baş verib. Laçın rayonunun işğalından sonra Goranboy rayonunun Ballıqaya kəndi yaxınlığında çadırda məskunlaşan altı ailənin üzvləri – 24 nəfər gecə yatdıqları yerdə ərazıyə basqın edən erməni silahlı dəstəsi tərəfindən amansızcasına qətlə yetirilib. Daha sonra çadırlara od vurulub, meyitlərin əksəriyyəti yandırılıb.

**30 avqust 1992-ci ildə** Azərbaycan Respublikası ilə Qazaxıstan arasında diplomatik əlaqələr qurulub.

### 15 il əvvəl...

**28 avqust 2007-ci ildə** Bakıda M.Muxtarov küçəsi 185 ünvanında inşa edilən 16 mərtəbəli binanın çökməsi nəticəsində 27 nəfər həlak olub. Qəza tikintinin mühəndislik və texniki təhlükəsizlik normalarına uyğun aparılmaması nəticəsində baş verib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2411
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641